Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 142 (8165) CÜMƏ AXŞAMI, 4 iyul 2019-cu il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az



## Prezidentin tapşırığı uğurla icra olunur

### Şamaxı, İsmayıllı və Ağsuda təbii fəlakət nəticəsində evləri qəzalı vəziyyətə düşmüş sakinlər yeni mənzillərlə təmin edilirlər

Azərbaycanda həyata keçirilən dövlət siyasətinin mərkəzində insan amilinin dayanmasını kifayət qədər faktlarla göstərmək olar. Bu sırada əvvəldən proqnozlaşdırılması mümkün olmayan təbiət hadisələri zamanı və digər ekstremal situasiyalarda dövlətin çevik reaksiyası xüsusilə qeyd olunmalıdır.

Bu ilin fevral ayında Şamaxı, İsmayıllı və Ağsu rayonlarında baş verən zəlzələlərin nəticələrinin aradan qaldırılması ilə bağlı ilk gündən həyata keçirilən təxirəsalınmaz tədbirlər bir daha göstərdi ki, insan amili dövlət siyasətində hər zaman prioritetdir.

Məlum olduğu kimi, bu il fevralın 5-də və 6-da baş vermiş zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında fərdi evlər qəzalı vəziyyətə düşmüş, bir sıra sosial və infrastruktur obyektlərinə ziyan dəymişdi. Prezident İlham Əliyevin tapşırıqlarına əsasən təbii fəlakətdən dərhal sonra görülən təxirəsalınmaz tədbirlər nəticəsində adıçəkilən rayonlarda mühəndis-kommunikasiya təminatı sistemləri tam bərpa edilmiş, zərər çəkmiş əhaliyə ilkin yardım göstərilmişdi.

Fevralın 7-də cənab İlham Əliyev özü zəlzələ zonasına gələrək sakinlərlə görüşmüşdü. Prezident vəziyyətlə tanış olub əhalinin müraciətlərinə diqqətlə baxılması, evlərə, həmçinin sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün müvafiq icra strukturlarına tapşırıq və göstərişlərini vermişdi. Şamaxı şəhərində sakinlərlə söhbət zamanı Prezident İlham Əliyev dövlətin zəlzələnin nəticələrinin aradan qaldırılmasını öz üzərinə götürdüyünü və bütün qəzalı evlərin qısa müddət ərzində ya bərpa ediləcəyini, ya da yenidən tikiləcəyini bildirmişdi: *"Təbii ki, belə hadisə baş verəndə mən mütləq burada, yanınızda olmalı idim ki, ilk növbədə, sizə öz dəstəyimi göstərim, digər tərəfdən, vəziyyətlə tanış olum. Dağıntılar var, xoşbəxtlikdən insan ölümü olmayıb. Onu da bildirməliyəm ki, bütün qəzalı evlər qısa müddət ərzində ya bərpa ediləcək, ya da yenidən tikiləcək. Komissiya işləyir, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları buradadır, yerli icra hakimiyyəti də işləyir. Hələ ki, bu vəziyyətdən əziyyət çəkən vətəndaşların məskunlaşması ilə bağlı məşğuldurlar. Eyni zamanda, tezliklə bu evlərin bərpası, yenidən tikilməsi nəzərdə tutulur. Müvafiq sərəncam imzalanacaq, Prezidentin Ehtiyat Fondundan vəsait ayrılacaq".*

*Ardı 6-cı səh.*

## Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarını dostluq və əməkdaşlıq münasibətləri birləşdirir

***Amerika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab Donald Trampa***



Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarını dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. Qarşılıqlı maraq doğuran bir sıra sahələrdə əməkdaşlığımız strateji tərəfdaşlıq xarakteri daşıyır.

Biz beynəlxalq təhlükəsizliyin təmin edilməsi, terrorizmə qarşı mübarizə məsələlərində çoxtərəfli qaydada fəaliyyətimizi bundan sonra da qətiyyətlə davam etdirmək əzmindəyik. Təşəbbüsçüsü olduğumuz və müvəffəqiyyətlə gerçəkləşdirdiyimiz "Cənub qaz dəhlizi" layihəsi isə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsinə mühüm töhfədir. Enerji mənbələrinin və nəqlinin şaxələndirilməsinə xidmət edən layihələrimizin Birləşmiş Ştatlar tərəfindən dəstəklənməsi bizim üçün çox əhəmiyyətlidir.

Bütün bunlarla yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmaması xalqımızın qarşılaşdığı ən ağrılı problem olaraq qalmaqdadır. Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü nəticəsində əzəli Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ətrafındakı 7 rayon işğal olunmuş, bir milyondan çox soydaşımız doğma yurd-yuvasından didərgin düşmüşdür. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə, Helsinki Yekun Aktının müddəalarına əsasən ölkəmizin ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə və ədalətli şəkildə həll olunmalıdır. Biz bu işdə ATƏT-in Minsk qrupunun həmsədri kimi ABŞ-ın ardıcıl və qətiyyətli mövqeyinə və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyul 2019-cu il*

## "Baker Hughes, a GE company" şirkətinin Azərbaycanla əməkdaşlığı ölkəmizin enerji sektorunun modernləşməsinə töhfələr verir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də "Baker Hughes, a GE company" şirkətinin sədri, prezidenti və Baş icraçı direktoru Lorenzo Simonellini qəbul edib.



AZƏRTAC xəbər verir ki, qəbula görə minnətdarlığını bildirən Lorenzo Simonelli Prezident İlham Əliyevlə görüşdən məmnun olduğunu vurğuladı. O, Azərbaycanda böyük inkişaf proseslərinin şahidi olduğunu dedi və ölkəmizdə neft və qaz sənayesi, turizm, idman və digər sahələrdə əldə olunan nailiyyətlərin önəmini qeyd etdi. Lorenzo Simonelli Azərbaycanda 1840-cı illərdə sənaye üsulu ilə ilk neft quyusunun qazıldığını vurğulayaraq təmsil etdiyi şirkətin Azərbaycanın neft və qaz sənayesinin inkişafına töhfə verməsindən məmnunluq hissi keçirdiklərini dedi.

Xoş sözlərə görə minnətdarlığını bildirən dövlət başçısı "Baker Hughes, a GE company" şirkətinin Azərbaycanla neftayırma və digər sahələrdə əməkdaşlığının uğurlu nəticələrinin ölkəmizin enerji sektorunun modernləşməsinə töhfə verməsini yüksək qiymətləndirdi. Azərbaycanda əldə olunan nailiyyətlərə toxunan Prezident İlham Əliyev ölkəmizin enerji, sənaye və digər sahələrdə böyük inkişaf əldə etməsinin əhəmiyyətini qeyd etdi. Dövlət başçısı Lorenzo Simonellinin Azərbaycana səfərinin səmərəli keçəcəyinə əminliyini bildirdi.

Görüşdə əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## "Azərbaycan" qəzeti: tariximizin güzgüsü

Yüz il öncə olduğu kimi, "Azərbaycan" qəzeti yenə müstəqil Azərbaycandan yazır. Səhifələrində dövlətimizin bugünkü inkişafından, xalqımızın tərəqqisindən və ümidli gələcəyimizdən bəhs edən yazılar dərc olunur. Tariximiz də daim xatırlanır. Bu tarixdə "Azərbaycan" qəzetinin də adı var. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin verdiyi ilk qərarlardan biri də bu mətbu orqanını yaratmaq olmuşdu. Qəzetin ömrü tarixin mürəkkəb, ziddiyyətli vaxtlarına düşdü. Azərbaycan xalqı üçün çətin və məsuliyyətli bir dönəmdə müstəqil Cümhuriyyət hökumətinin problemlərindən, qayğılarından, xalqımızın azadlığının qorunması uğrunda mübarizəsindən, düşmən hiylələrindən və hücumlarından yazdı. Müstəqil hökumətin verdiyi qərarları, qanunları dərc etdi.





Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna nail olanlar "Azərbaycan" qəzetinin də fəaliyyətinə son qoydular. Lakin XX əsrin son onilliyindən "Azərbaycan" qəzeti yenidən işıq üzünə çıxdı və müstəqilliyinə qovuşan Azərbaycanın rəsmi mətbuat orqanı oldu. Ötən il - Cümhuriyyət ilində "Azərbaycan" qəzetinin də 100 illik yubileyi qeyd edildi. Bu münasibətlə dövlət başçısı İlham Əliyev redaksiya kollektivinə məktub ünvanladı, qəzetin əməkdaşlarını orden və medallarla, fəxri adlarla təltif etdi. Qəzetin ünvanına respublikamızın hər yerindən təbriklər gəldi. Ölkənin ictimai-siyasi həyatında "Azərbaycan" qəzetinin rolu barədə tanınmış ziyalılar, alimlər, araşdırıcılar məqalələr yazdılar. Həmin məqalələr bu günlərdə işıq üzü görmüş "100 yaşlı Azərbaycan" adlı kitabda da əksini tapdı.

Azərbaycan Milli Elmlər Akademiyası Abbasqulu ağa Bakıxanov adına Tarix İnstitutunda "Azərbaycan" qəzetinin 100 illiyinə və "100 yaşlı Azərbaycan" kitabının təqdimatına həsr olunmuş "Azərbaycan" qəzeti: tariximizin güzgüsü" mövzusunda elmi konfrans keçirildi.

*Ardı 2-ci səh.*

## Xalq-iqtidar birliyinin təzahürü

Azərbaycanın müstəqillik tarixində reallaşan iqtisadi və sosial layihələri, həyata keçirilən köklü islahatları müxtəlif baxış bucaqlarından nəzərdən keçirdikdə önəmli mənzərənin şahidi oluruq.

Müasir dünyada baş verən siyasi burulğanların, gərgin beynəlxalq münasibətlərin, aramsız iğtişaşların, alışan müharibələrin və səngimək bilməyən çəkişmələrin fonunda Azərbaycanın dinamik inkişafı, dünyada ən islahatçı ölkə imicini qazanması, nüfuzlu beynəlxalq reytinq agentliklərinin keçirdikləri rəy sorğularında öndə getməsi əslində öyrənilməsi zəruri olan fenomenal siyasi situasiyadır.

Ölkəmizin bədnam və işğalçı Ermənistan tərəfindən sonu görünməyən müharibəyə cəlb edilməsi, ərazilərimizin 20 faizinin işğalı, cəbhədə atəşkəs olsa da, təmas xəttində bu kövrək və etibarsız sülhün hər gün pozulması, dinc əhalinin aramsız atəşə tutulması və günahsız insanların, qadın və uşaqların qətlə yetirilməsi Azərbaycan dövlətçiliyini sarsıtmağa və çökdürməyə hesablanan məkrli erməni planıdır. Məqsəd Azərbaycan iqtisadiyyatına ağır zərbə vurmaq, onu dünyada gedən siyasi proseslərdən təcrid etmək, daxili siyasi sabitliyi pozmaq, iqtisadi böhran yaratmaq və onu siyasi xaosa sürükləməkdir. Faktiki olaraq ötən əsrin 90-cı illərində yaranmış vəziyyət buna yaxın və demək olar ki, Azərbaycanın düşmənləri istədiklərinə nail olmaq ərəfəsində idi. O zaman erməni işğalçılarını bu niyyətlərində dəstəkləyən, onlara dayaq duran super güclərin də siyahısı təsəvvür etdiyimizdən xeyli uzun idi. Faktiki olaraq belə bir ciddi təsir mexanizmi öz faydasını verməli və bir sıra Şərq dövlətləri kimi, Azərbaycanı da çökdürməli idi.

Lakin Azərbaycan bütün çağırışlara sinə gərə bildi, dünyanın siyasi müstəvisində tək olmasına, tarixi aylarla ölçülən diplomatik staja malik olmasına baxmayaraq, müstəqillik ideyalarına sadiqliyini qorudu, xalq və iqtidar birliyinin vəhdətindən doğan gücə söykənərək düşmənlərinin və siyasi rəqiblərinin məkrli planlarını darmadağın etdi.

O zaman Qafqazda geosiyasi vəziyyətin həddən artıq mürəkkəbləşməsinə baxmayaraq, Ulu Öndər Heydər Əliyev iqtidar-xalq birliyini monolit gücə çevirdi. Onun dəmir iradəsi, qətiyyəti və gələcəyə yönəlmiş addımları bugünkü Azərbaycan reallıqlarının özülünü təşkil etdi. Azərbaycan Prezidenti İlham Əliyev də hakimiyyətə gəldiyi gündən Heydər Əliyev siyasətini davam etdirməyi, insanların rifahı naminə çalışmağı, xalq-iqtidar birliyini qorumağı qarşısına məqsəd qoydu.

Dövlət başçısı fəxarətlə qeyd edir ki, Azərbaycanda sabitliyin təminatçısı xalqdır. "Dünya birliyinin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir və bu dəstək BMT Təhlükəsizlik Şurasında keçirilmiş səsvermədə özünü büruzə verdi, 155 ölkə bizi dəstəklədi. Yəni bu da tarixi nailiyyətimizdir. Bir çox beynəlxalq təşkilatlar bu dövrdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətə əsaslanan, bizim mövqeyimizi müdafiə edən qərar və qətnamələr qəbul etmişdir, o cümlədən BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər təşkilatlar. Bu, bizim böyük diplomatik və siyasi uğurumuzdur", - deyə İlham Əliyev bildirmişdir.

Bütün görülən tədbirlərin, atılan addımların sırasında isə ən vacibi qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli istiqamətində atılan addımlar idi. Biz indi dövlət başçısının əhalinin sosial rifahının gücləndirilməsi üçün imzaladığı çoxsaylı sərəncamlardan danışırıq, artıq ikinci sosial paket medianın diqqət mərkəzindədir. Amma hər şey ənənələrdən başlayır. Heydər Əliyev müstəqilliyin ilk illərində necə məcburi köçkünlərin problemləri ilə maraqlanırdısa, onlara böyük qayğı, diqqət göstərirdisə, bu gün də həmin təbəqə dövlətin diqqət mərkəzindədir.

*Ardı 6-cı səh.*

# "Azərbaycan" qəzeti:

## Bu mövzuda Azərbaycan Milli Elmlər Akademiyasının

*Əvvəli 1-ci səh.*

***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Yaqub MAHMUDOV*** *tədbiri giriş sözü ilə açaraq "Azərbaycan" qəzetinin 100 ildə keçdiyi şərəfli inkişaf yolundan, əvəzsiz xidmətlərindən danışdı. O bildirdi ki, "Azərbaycan" qəzeti: tariximizin güzgüsü" mövzusunda keçirilən bu elmi konfransda "Azərbaycan"ın yaranmasından bugünədək tarixə elmi baxış öz əksini tapacaq, xalqımızın, vətənimizin tarixində qəzetin rolu ilə bağlı fikir mübadiləsi aparılacaq. Akademik "Azərbaycan" qəzetinin, onun adının bizə Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olduğunu dedi:*

- Bütövlükdə Azərbaycan adını ölkəmizin şimalında Azərbaycan Xalq Cümhuriyyətinin böyük dövlət xadimləri əbədiləşdirdilər. Vətənin bu hissəsinə Azərbaycan möhürünü vurdular və yaranan müstəqil, müasir dövlətimizi, azad respublikamızı Azərbaycan adlandıra bildilər. Hər tərəfdən - şimaldan, cənubdan, şərqdən, qərbdən ağır basqılar olmasına baxmayaraq bu adı, vətənimizin adını bir dövlət adı kimi yazmağı, onu yaşatmağı bacardılar. Mən düşünürəm ki, dövlətimizin adı qədər bu qəzetin adı da bizim üçün müqəddəsdir. "Azərbaycan" bizə Cümhuriyyət xadimlərinin yadigarıdır.

Cümhuriyyət xadimlərinin hərəsi bir eldən, obadan, nəsildən, tayfadan olmasına baxmayaraq, onları müqəddəs Azərbaycan adı birləşdirirdi. Bu adın təntənəsi uğrunda mübarizə aparırdılar. Buna görə də ailələrini, nəsillərini, tayfalarını unudaraq, bütöv Azərbaycana xidmət edirdilər.

Böyük məmnuniyyət hissi ilə qeyd edirəm ki, ölkənin Azərbaycan Xalq Cümhuriyyətinə həsr olunan təqvimini buraxmaq imkanı yarandı və 12 ay üçün 12 nəfəri seçərkən cümhuriyyətin görkəmli dövlət xadimlərinin sırasına Üzeyir bəy Hacıbəylinin də adı salındı. Təqvimdə Üzeyir bəyin portreti, tərcümeyi-halı verildi. Həqiqətən də, Üzeyir bəy Hacıbəyli Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli dövlət xadimidir. O, iliyinə, qanınadək Azərbaycançıdır. Dahi Üzeyir bəy Hacıbəylinin adı var bu qəzetin üstündə. Bu qəzet həm də Üzeyir bəyin yadigarı olduğuna görə bizim üçün çox dəyərlidir.

Ensiklopediya araşdırmaları zamanı mən çox çalışsam da, arxiv sənədlərində parlamentin son iclasının gedişini tapa bilmədim. Həmin materialı da mətbuat səhifələrində tapdım. Yəni bizim qəzetimiz - "Azərbaycan" qəzeti o dövrü öyrənmək, araşdırmaq üçün son dərəcə qiymətli mənbədir. Çünki səhifələrində yer verilmiş məqalələrdə "Azərbaycan" deyən, bu ad, bu Vətən üçün canını qurban verən böyük dövlət adamlarımızın ürəyi döyünür. "Azərbaycan" qəzetinin o illərdəki nömrələri buna görə bizim üçün olduqca dəyərlidir.

"Azərbaycan" Xalq Cümhuriyyətinin yaşıdıdır. Cümhuriyyət tarixinin öyrənilməsində "Azərbaycan" qəzetində dərc olunmuş materialların ilk mənbə kimi əhəmiyyəti böyükdür. Qəzetin ilk nömrəsi 1918-ci il sentyabrın 15-də Gəncə qubernatorunun mətbəəsində çap edildi. Qəzetin Gəncədə Azərbaycan dilində buraxılmış səhifələrinin başında onun adı ilə yanaşı, "Türk və islamçılığa aid məqalələrə "Azərbaycan"ın səhifələri açıqdır" yazısı da verilmişdi.

"Azərbaycan" qəzeti: tariximizin güzgüsü" mövzusunda keçirilən bu konfrans həm də ona görə sıradan olan konfrans deyil ki, "Azərbaycan" dövlətin bütün məqamlarda vuran əlidir, ideologiyasıdır. Onun vasitəsilə biz zərbəmizi vururuq, ona baxıb düzlənirik. Əbəs deyil ki, Ulu Öndər Heydər Əliyev bu qəzetə xüsusi qiymət verirdi.

"Azərbaycan" qəzeti bütün dövrlərdə dövlətin, millətin ümumi sözünü deyib, hədəflərini müəyyənləşdirib və lazım gələndə, ümumi zərbə istiqamətlərini göstərib. Bu baxımdan da bizim üçün çox qiymətlidir.

Biz müstəqillik illərində Tarix İnstitutunda çətin olan bir işi həyata keçirdik. Bizim ən böyük nailiyyətimiz odur ki, tariximizə sahib çıxdıq. Azərbaycan tarixini olduğu kimi bu millətə təqdim etmək üçün əlimizdən gələni etdik. Konsepsiyaları dəyişdirdik, saxtalaşdırılmış məsələlərə münasibət bildirdik. Yeni xətlər, araşdırılmamış məsələlər, böyük Azərbaycanın bütün diyarlarının öyrənilməsi - Borçalısından, Dərbəndindən, İrəvan ellərindən, Zəngəzurundan tutmuş cənubunadək bütün ərazilərimizin tarixini əhatə edərək ona sahib çıxmaq üçün bacardığımızı etdik. Yazdığımız kitabları Latın Amerikasında, ərəb dünyasında, Rusiyada, Avropanın müxtəlif ölkələrində nəşr etdirdik. Respublikamızın təhsil ocaqlarında tədris olunan dərslikləri dəyişdirdik. Körpü yarandı. Əminik ki, bu körpüdən keçən gənc nəsillər artıq gələcəkdə onu əldən verməyəcəklər. Bu, böyük uğurdur. Amma biz bu uğura asanlıqla qovuşmamışıq. Təəssüf ki, biz həmin ağır addımları atanda, milləti öz tarixinə sahib çıxmağa çağıranda bu vətənin içərilərində də müəyyən maneələrə rast gəldik. Beləleri bizə çox ciddi əngəllər törətdilər. Həmin əngəlləri, maneələri dəf etdiyimiz vaxtlarda, çətin məqamlarda "Azərbaycan" qəzeti Tarix İnstitutunun yanında oldu. Xalqımıza qarşı törədilmiş soyqırımların və itirilmiş torpaqlarımızın tarixinə, qədim dövrlərdən bugünədək baş verən hadisələrə prinsipial münasibətimizi əks etdirən yazılarımız "Azərbaycan"ın səhifələrində əksini tapdı.



Bu qəzet müntəzəm olaraq Tarix İnstitutunun tariximizin ən aktual, ən konseptual məsələləri ilə bağlı nəşr etdirdiyi kitabların təqdimatlarını, keçirdiyi digər tədbirləri vaxtında ölkə ictimaiyyətinə çatdırdı. Qeyd etdik ki, Tarix İnstitutu son illərdə Azərbaycan tarix elmini dünya miqyasına çıxarıb. Azərbaycan tarixçiləri çoxsaylı beynəlxalq konfranslarda uğurla iştirak edib, əsərləri dünyanın müxtəlif şəhərlərində - Nyu York, Los Anceles, London, Paris, Roma, Mexiko, Moskva, Kiyev və başqa yerlərdə işıq üzü gördü. "Azərbaycan" qəzeti bu barədə ölkə ictimaiyyətinə məlumat verdi.

Ermənilər öz saytlarından hər gün, ayrı-ayrı məsələlərlə bağlı bizə hücumlar edirlər. Onlardan fərqli olaraq bizim cavablarımız tutarlı tarixi faktlara əsaslanır. Bu yazıları digər mətbuat orqanları da verir. Amma "Azərbaycan" qəzetində dərc olunması o deməkdir ki, bu, dövlətin sözüdür. Bu baxımdan da "Azərbaycan" qəzeti bizim üçün çox dəyərlidir.

Təşəkkür edirəm ki, "Azərbaycan" qəzetinin elektron versiyasını bizə təqdim etdiniz. İndi Tarix İnstitutunun əməkdaşları bu mətbu orqanını öyrənmək, araşdırmaq üçün arxivləri, kitabxanaları axtarmalı olmayacaqlar. Çünki institutumuzun kitabxanasında həmin materiallarla tanış olmaq imkanları var. Bu, bizim üçün çox qiymətli hədiyyədir. Buna görə də sizə öz minnətdarlığımızı bildiririk.

*Elmi konfransda* ***"Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar SADIQOV*** *məruzə etdi. O, əvvəlcə "Azərbaycan" qəzetinin 100 illiyinə həsr edilmiş tədbirin keçirilməsinə görə AMEA Tarix İnstitutunun rəhbərliyinə təşəkkürünü bildirdi:*

- Çox hörmətli Yaqub müəllim, hörmətli alimlər, tarixçilər, xanımlar və cənablar! Bu gün biz sizinlə ikinci dəfədir ki, görüşürük və bu, həm də Yaqub müəllimin bildirdiyi kimi, mən də öz tərəfimdən deyirəm, bir minnətdarlıq görüşüdür. Biz 2017-ci ildə "Azərbaycan" qəzetinin 100 illik yubileyinə hazırlığa başlayanda ilk görüşü sizinlə keçirdik. Bu çətin yola, yəni yubileyin qeyd edilməsi yoluna sizinlə birlikdə başladıq. "Azərbaycan" qəzeti haqqında çox yazılmamışdı. Sovet hakimiyyəti dövründə "Azərbaycan" qəzetinin üzərinə həbs, qadağa qrifi qoyulduğuna, bir neçə dəfə əlifbamız dəyişdirilərək keçmişimizdən qırıldığına görə mümkün olmamışdı. Bunu ancaq siz tarixçilər edə bilərdiniz. Və mən bizə kömək etdiyinizə görə bir daha təşəkkürümü bildirirəm.

Yubileylə bağlı nəşr etdirdiyimiz "100 yaşlı Azərbaycan" kitabında siz tarixçilər, alimlər və mətbuat tədqiqatçıları maraqlı məqalələrlə çıxış etmisiniz. Bu, "Azərbaycan" qəzetinin yaşadığı o dövrün bütün qaranlıq məqamlarına işıq salan kitabdır. Buna görə mən sizin hamınıza təşəkkür edirəm. Gözəl bir deyim var: "Qayda budur, igid gedər ad qalar, yaxşıdan da, yamandan da ağızda bir dad qalar". Siz tarixçilər, biz jurnalistlər... Tale qismət edib ki, sizdən sonra kitablar, əsərlər, bizdən sonra yazılar qalır. Həmin yazılarda biz həm baş verən hadisələr, həm də insanlar, şəxsiyyətlər haqqında informasiyalar yazırıq və bunlar qəzet səhifələrində, salnamələrdə yığılır. Sonra tarixçilər tərəfindən əsərlər, kitablar meydana gəlir, şərhlər yazılır. Bu mənada biz sizinlə birlikdə addımlayırıq.

"Azərbaycan" qəzeti haqqında bizim "Azərbaycan-90" adlı bir kitabımız da çıxmışdı. O kitabda cümhuriyyət dövrü "Azərbaycan"ına daha çox yer verilmişdi. "100 yaşlı Azərbaycan" isə bütövlükdə "Azərbaycan"a həsr olunub. Bilirsiniz ki, onun da 70 ili həbsxanada keçib. "Azərbaycan" qəzeti nədən yazıb, necə yazıb, hansı məsələlərə toxunub, həmin kitabda var.

"Azərbaycan" qəzeti həm də obyektiv bir salnaməçi olub. Bizim müstəqilliyimizin salnaməçisi. Həm də müstəqilliyimizin atributlarından birinə çevrilib, yəni 1918-ci ildə ölkəmiz müstəqilliyini qazandıqdan sonra "Azərbaycan" qəzeti nəşrə başlayıb. 1920-ci ildə müstəqillik əlimizdən alınıb, bu qəzetin üzərinə həbs qoyulub. Ötən əsrin 90-cı illərində isə müstəqilliyimizi bərpa etmişik, "Azərbaycan" qəzeti yenidən işıq üzü görüb.

"Azərbaycan" qəzeti müstəqillik dövrümüzün tarixini yazıb. Və "Azərbaycan" qəzeti obyektiv tarixçi olub. Niyə? Cümhuriyyət dövründə bu qəzetə də çox hücumlar olub. Ceyhun bəy Hacıbəylinin sözlərini mən sitat gətirirəm ki, "Azərbaycan" qəzeti nə bir firqə qəzeti, nə bir sinfin qəzeti, nə də bir kadastr qəzeti olub, "Azərbaycan" qəzeti milli orqan olub və qarşısında Azərbaycan hökumətinin gördüyü işləri işıqlandırmaq olub".

Müstəqillik dövründə biz də bu işlə, bu sahə ilə məşğul olmuşuq. Və bununla bağlı bütün yazılar qəzetimizdə verilib. Yəni cümhuriyyət dövründə görülən bütün işlər, qəbul olunan qanunlar, qərarlar dərc olunub, parlamentin fəaliyyəti, stenoqramlar, şərhlər... bu qəzetin səhifələrində əksini tapıb. Müstəqillik dövründə də mərhələlər üzrə Ulu Öndər Heydər Əliyevin qayıdışı, Azərbaycanın yenidən parçalanmaqdan xilası, "Əsrin müqaviləsi"nin imzalanması, ölkədə sabitliyin yaranması, respublikamızın dünyaya inteqrasiyası... bütün mövzular, məsələlər, qanunlar qəzetdə işıqlandırılıb. "Azərbaycan" yeganə qəzetdir ki, rəsmi dövlət statusu daşıyır. Bilirsiniz ki, onun yükü nədir. "Azərbaycan" yeganə qəzetdir ki, Milli Məclisin orqanıdır. Yəni yaradıcı kollektivin orqanı deyil, yaradıcı kollektivin yaratdığı qəzet deyil.

Biz daim dövlətimizə, dövlətçiliyimizə xidmət etmişik. Sizinlə birlikdə olmuşuq. Artıq "Azərbaycan"ın 100 yaşını qeyd etdik. Mən bir daha Yaqub müəllim başda olmaqla hamınıza təşəkkürümü bildirirəm ki, lazım olan yazıların, materialların qələmə alınmasında, işıqlandırılmasında bizə dəstək oldunuz. Kimdən nə xahiş etdik, kim nə bacarırdısa, bu işdə bizə kömək etdi və ikinci kitabı buraxdıq. Eyni zamanda, biz daha bir çətin işin öhdəsindən gəldik. Cümhuriyyət dövründə "Azərbaycan"ın 443 nömrəsi çıxmışdı. Onun bütün nömrələrini əldə edə bilməmişdik. Arxivlərə, insanlara müraciət etdik. Nəhayət, müxtəlif yerlərdən "Azərbaycan"ın elektron versiyasını toplaya bildik. Bu gün "Azərbaycan" qəzeti nəşrə başlayandan indiyədək və cümhuriyyət dövrünün 443 nömrəsinin elektron variantını sizə hədiyyə edirik. Deyir, "çörəyi ver çörəkçiyə, birini də üstəlik". Siz bununla işləyirsiniz. Bunları siz yaradırsınız, biz siz alimlərə kömək etməliyik.

"100 yaşlı Azərbaycan" kitabında Yaqub müəllim özü də "Tariximizin qan yaddaşı "Azərbaycan"ın səhifələrində" adlı dəyərli məqalə ilə çıxış edib.

Yaqub müəllim özü də xatırlatdı ki, son 15 ildə Tarix İnstitutu hansı işləri görüb, hansı kitabları nəşr edib. Biz onu qəzetdə dərc etdik. Bunu həm də tarix üçün etdik. Qəzet əsl yaşayan arxivdir. Biz özümüz "Azərbaycan" qəzetinin elektron variantını hər il saxlanılan yerlərə çatdırırıq. Əməkdaşlıq etdiyimiz dörd ünvan var. Biri Tarix İnstitutudur. Burada hökmən olmalıdır. Bir daha o kitabı vərəqləyəndə keçmişimizə (onda bugünümüz də keçmiş olacaq) səyahət edəsiniz.

Biz jurnalistlər günün tarixini yazırıq, siz tarixçilər isə illərin, qərinələrin, əsrlərin. İstəyirik ki, bu kitab siz tarixçilərin əlinin altında olsun və beləliklə, sizin işinizi asanlaşdırsın.

Çox sağ olun! Sizinlə başladıq, sizinlə başa vururuq. Bu, bizim mənəvi borcumuzdur.

*"Son 15 ildə Azərbaycan tarixi məsələləri "Azərbaycan" qəzetinin səhifələrində" mövzusunda çıxış edən* ***Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru Tofiq NƏCƏFLİ*** *qeyd etdi ki, müstəqillik illərinin mühüm nailiyyətlərindən biri tarix elmimizin inkişafı sahəsində əldə olunan böyük uğurlardır. T.Nəcəfli bildirdi ki, Azərbaycan tarixşünaslığını müstəqil inkişaf yoluna Ulu Öndər Heydər Əliyev çıxarmışdır:*

- Dahi şəxsiyyət doğma xalqına, Vətən torpağına həsr olunmuş ömrünün bütün çağlarında tariximizin azərbaycançılıq məfkurəsi əsasında doğru-düzgün araşdırılmasını və gənc nəslin doğma vətənə sədaqət ruhunda tərbiyə olunmasını daim diqqət mərkəzində saxlayırdı.

Ulu Öndərin tarix elmimizin inkişafı ilə bağlı bütün ideyalarını, planlarını dönmədən həyata keçirən Prezident İlham Əliyev tarixçi alimlər qarşısına yeni və konkret vəzifələr qoydu. Müasir Azərbaycan tarixşünaslığında "İtirilmiş torpaqların tədqiqi" problemi elmi dövriyyəyə daxil edildi, bu istiqamətdə ciddi tədqiqatlar aparılmaqla obyektiv tarixi gerçəkliyi özündə əks etdirən bir sıra sanballı əsərlər nəşr olundu. Ölkə başçısının çağırışları, təşəbbüsü və birbaşa tövsiyəsi ilə ilk dəfə olaraq "Azərbaycan Tarixi Atlası", mükəmməl tədqiqat əsərləri olan "Qarabağ: real tarix, faktlar, sənədlər", "Naxçıvan: tarixi və abidələri", erməni-daşnak quldur rejimləri tərəfindən Azərbaycanın müxtəlif bölgələrində həyata keçirilmiş soyqırımları barədə ayrı-ayrılıqda çoxsaylı kitablar nəşr olundu. Qeyd etmək lazımdır ki, Tarix İnstitutunun elmi tədqiqat fəaliyyəti ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir. İnstitutda aparılan bütün mühüm araşdırmalar birbaşa ölkə başçısının çağırışları və tapşırıqları əsasında həyata keçirilir.

İnstitutda əldə olunan uğurlar yüksək qiymətləndirilmiş, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Qarabağın, Naxçıvanın və İrəvan xanlığının tarixinə dair silsilə əsərlərə görə Tarix İnstitutunun 13 əməkdaşına Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı fəxri adı verilmişdir. Prezident İlham Əliyev Tarix İnstitutunu "ölkəmizdə tarix üzrə araşdırmaların mərkəzi" adlandırmışdır.

Tarix İnstitutunun elmi fəaliyyətində əldə etdiyi uğurların geniş ictimaiyyətə çatdırılmasında müstəqilliyimizin atributu olan "Azərbaycan" qəzeti mühüm rol oynayır. İnstitutun rəhbərliyi başda olmaqla bütün kollektiv müntəzəm olaraq Azərbaycanın mühüm konseptual məsələləri - dövlət başçımızın tarix elmi qarşısında qoyduğu mühüm vəzifələr, tövsiyə və çağırışları, ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı cinayətləri, itirilmiş torpaqlarımızın tarixi, "Böyük Ermənistan" uydurması, qədim Alban dövlətinin tarixi, daşnak Şaumyanın anti-Azərbaycan fəaliyyəti, tarixi şəxsiyyətlərimizə qarayaxanlara qarşı mübarizə və s. kimi taleyüklü məsələlərin geniş ictimaiyyətə çatdırılması üçün qəzetlə sıx əməkdaşlıq edir. Azərbaycanın taleyüklü məsələləri "Azərbaycan" qəzeti səhifələrində işıqlandırılır.

2007-ci ildən Tarix İnstitutunda "Azərbaycan tarixi ilk mənbələrdə" layihəsi həyata keçirilməyə başlanmışdı. Dünyanın mühüm elm mərkəzlərində, arxivlərində saxlanılan tariximizlə bağlı çoxlu sayda sənədlər ölkəmizə gətirildi. Tarixçilərimiz ilk mənbələrə, o cümlədən zəngin arxiv sənədlərinə əsaslanaraq vətənimizin saxtalaşdırılmalardan, təhriflərdən təmizlənmiş yeni tarixini yazırlar. Yeni əsərlərlə bağlı rəylər və monoqrafiyalar barədə ilk məlumatlar məhz "Azərbaycan" qəzetinin səhifələrində cəmiyyətə çatdırılır.

Tarix İnstitutunda aparılan elmi tədqiqatların mühüm istiqamətlərindən biri də xalqımıza qarşı ermənilərin həyata keçirdiyi soyqırımlar tarixinin tədqiqidir. Ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri cinayətlərin tarixini vərəq-vərəq izləmək və ən başlıcası - dünya ictimaiyyətinə çatdırmaq məqsədilə Tarix İnstitutu dünyanın tanınmış alimlərinin iştirakı ilə 5 beynəlxalq soyqırımları konfransı keçirmiş, erməni daşnakların Azərbaycan xalqına qarşı törətdiyi kütləvi soyqırımın gerçək tərəflərini üzə çıxarmışdır. Son illər institutda ermənilərin azərbaycanlılara qarşı Bakıda, Şamaxıda, Qubada, Qarabağda, Zəngəzurda, İrəvanda, Naxçıvanda, Urmiya gölü ətrafında, Şərqi Anadoluda həyata keçirdikləri soyqırımlarını sübut edən dəyərli tədqiqatlar aparılmış, çoxsaylı fundamental əsərlər, monoqrafiyalar və sənəd topluları işıq üzü görmüşdür. Bütün bu monoqrafiyalar haqqında məlumatlar, əməkdaşlarımızın Azərbaycanın müxtəlif bölgələrində ermənilərin türk-müsəlman əhaliyə qarşı həyata keçirdiyi soyqırımları ilə bağlı elmi məqalələri müntəzəm olaraq "Azərbaycan"ın səhifələrində dərc edilmişdir.

Tarix İnstitutu ermənilərin Azərbaycan xalqına qarşı informasiya müharibəsinin getdikcə daha kəskin xarakter aldığını və ölkə Prezidenti İlham Əliyevin milli maraqlara söykənən qətiyyətli xarici siyasətinə tələb olunan səviyyədə informasiya təminatı yaratmaq məqsədilə tarixi tədqiqatların miqyasını daha da genişləndirmişdir. Dövlətçilik tariximizin təhrif olunmasına, xalqımızın yaratdığı qədim və zəngin mədəniyyətə sahib çıxmağa çalışanlara və görkəmli tarixi şəxsiyyətlərimizə qarayaxanlara qarşı məhz "Azərbaycan" qəzetinin səhifələrində tutarlı elmi məqalələrlə cavab verilmişdir. Akademik Yaqub Mahmudovun "Azərbaycan" qəzetində çap olunan "Tarixi şəxsiyyətlərimizə sahib çıxaq" adlı məqaləsində xalqın yaddaşında yüz illər ərzində özünə layiqli yer tutmuş görkəmli dövlət xadimlərinə və digər tarixi şəxsiyyətlərə, o cümlədən Babək, Cavanşir, Şəmsəddin Eldəniz, Uzun Həsən, Şah İsmayıl Səfəvi, Şah Təhmasib Səfəvi, Şah Abbas Səfəvi, Nadir şah Əfşar, Ağa Məhəmməd şah Qacar və digər tarixi şəxsiyyətlərə qarşı saxta, elmdən uzaq, sağlam məntiqdən kənar fikirlərlə çıxış edənlər ifşa edilmişdir.

Azərbaycan Respublikasının rəsmi orqanı olan "Azərbaycan" qəzeti ölkəmizin həyatında olduqca mühüm hadisələrlə yanaşı, həm də tariximizin ən konseptual məsələlərini müntəzəm olaraq öz səhifələrində işıqlandırır.

*"Dövlət müstəqilliyinin bərpa olunmasından sonrakı dövrdə Azərbaycan tarixi məsələləri "Azərbaycan" qəzetinin səhifələrində" mövzusunda çıxış edən* ***Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru, dosent Cəbi BƏHRAMOV*** *2018-ci ilin Azərbaycanın milli tarixinə "Cümhuriyyət ili" kimi daxil olduğunu dedi:*

- Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi münasibətilə Prezident İlham Əliyev tərəfindən elan edilən həmin ildə bir çox mühüm hadisələr, o cümlədən Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi dövlət qəzeti olan "Azərbaycan"ın nəşrə başlaması da qeyd olundu. "Azərbaycan" qəzeti XX əsr Azərbaycan milli mətbuat tarixində müstəsna yer tutur. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti Sovet Rusiyasının hərbi təcavüzü nəticəsində süqut etdi və onun baş mətbu orqanı "Azərbaycan" qəzetinin nəşri dayandırıldı. Lakin 70 illik qadağadan sonra 1992-ci ildən "Azərbaycan" qəzeti rəsmi dövlət orqanı olaraq yenidən fəaliyyətə başladı. Qeyd etmək lazımdır ki, qəzet Azərbaycan xalqının XX əsr tarixinin 1918-1920-ci illər dövrünün siyasi, sosial-iqtisadi, mədəniyyət və hərb tarixinin tədqiqi üçün çox mühüm mənbə hesab edilir və Tarix İnstitutu VII cildlik "Azərbaycan tarixi"ni hazırlayarkən V və VII cildlərin yazılması üçün müəlliflər tərəfindən "Azərbaycan" qəzetinin materiallarından istifadə edilmişdir. Bundan əlavə, Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edildikdən sonra keçən illər ərzində nəşr olunan "Azərbaycan" qəzetinin materialları müstəqillik dövrü tarixinin yazılmasında mənbə rolunu oynamışdır. 2013-cü ildə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə institutun çapa hazırladığı ikicildlik "Heydər Əliyev" monoqrafiyasının yazılması zamanı və 2016-cı ildə dövlət müstəqilliyinin bərpasının 25 illik yubileyi münasibəti ilə çapa hazırlanan ikicildlik "Azərbaycan Respublikasının tarixi" monoqrafiyası qələmə alınarkən "Azərbaycan" qəzetində nəşr olunan materiallardan geniş şəkildə istifadə olunmuşdur. Bütün bunlarla yanaşı "Azərbaycan" qəzetində Tarix İnstitutunun elmi əməkdaşlarının məqalələri daim çap olunur. Həmin məqalələrdə tariximizin ən aktual problemlərinə həsr olunmuş məsələlər, ilk növbədə qədim, orta əsrlər, yeni və ən yeni tarixə dair müxtəlif problemlər öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, "Azərbaycan" qəzeti Azərbaycan Respublikasının 1992-ci ildən başlayaraq bugünədək siyasi, sosial-iqtisadi, mədəni, hərbi, xarici siyasət, beynəlxalq münasibətlər və əlaqələr həyatına aid hadisə və faktların gündəlik əks olunduğu yeganə rəsmi dövlət orqanıdır. Burada müasir Azərbaycan dövlətinin bütün sahələrdəki fəaliyyətinin çox mühüm məqamları işıqlandırılır. Bütün bunlarla yanaşı "Azərbaycan" qəzetində xalqımız üçün mühüm əhəmiyyət kəsb edən dövlət sənədləri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Milli Məclisin qəbul etdiyi qanunlar dərc olunur ki, bu da müasir dövr tarixinin siyasi, sosial-iqtisadi, mədəniyyət, hərbi məsələlərin araşdırılmasında tədqiqatçılar üçün çox geniş imkanlar yaradır.

Xüsusi qeyd etmək istərdim ki, son 15 il ərzində "Azərbaycan" qəzetində Tarix İnstitutunun alimləri tərəfindən Azərbaycanın XIX-XX əsrlər tarixinin ən qaranlıq səhifələri, arxiv sənədləri və dəqiq mənbələrə istinadən yazdıqları məqalələr geniş şəkildə işıqlandırılmışdır. Bu məqalələr içərisində XIX əsrin I yarısında Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və 1917-ci ilədək burada yeridilən ağır müstəmləkə siyasəti, 1918-1920, 1921-1991-ci illərdə Azərbaycan xalqına qarşı törədilən soyqırımı cinayətləri, 1918-ci ildə AXC-nin yaradılması və onun 1920-ci ildə Sovet Rusiyası tərəfindən süquta uğradılması, milli-dövlətçilik atributlarının ləğvi və qadağan edilməsi, 1941-1945-ci illər müharibəsində Azərbaycan xalqının faşizm üzərində əldə edilən qələbəyə verdiyi həlledici töhfə, Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti, 1990-cı il 20 Yanvar və 1992-ci il Xocalı soyqırımı cinayətləri, 1988-1991-ci illərdə azərbaycanlıların öz tarixi torpaqlarından - Ermənistan SSR ərazisindən deportasiya olunmalarının işıqlandırılması məsələləri xüsusi yer tutur.

C.Bəhramov çıxışının sonunda Tarix İnstitutu ilə "Azərbaycan" qəzeti arasında yaranmış əməkdaşlığı alqışladığını və onun daha da genişləndirilməsini arzuladığını bildirdi.

***Tarix elmləri doktoru Vaqif ABIŞOV*** *konfransda "Türkiyə tarixinin (1918-1920-ci illər) öyrənilməsi ("Azərbaycan" qəzetinin materialları əsasında)" mövzusunda çıxış etdi. O, cümhuriyyət dövründə "Azərbaycan" qəzetinin, demək olar ki, bütün saylarında Türkiyə ilə bağlı müxtəlif mövzularda materialların dərc olunduğunu söylədi:*

- Bu materiallar içərisində ən çox diqqəti cəlb edən Birinci Dünya müharibəsində məğlub olmuş Türkiyənin gələcək fəaliyyəti, Sultanın, Xəlifənin və İstanbulun taleyinə dünya müsəlmanlarının münasibəti, Türkiyə ərazisinin bölüşdürülməsinə cəhd göstərilməsi, Mustafa Kamal Paşa başda olmaqla Anadolu və Rumeli milli təşkilatının Antanta dövlətlərinin Türkiyəni bölüşdürmək siyasətinə qarşı güclü və barışmaz mövqedə duraraq xalqın müqavimətini təşkil etməsi və s. məsələlərdir.

Birinci Dünya savaşında qalib gəlmiş müttəfiq dövlətlər Türkiyə ilə sahibsiz və yox olmaq vəziyyətinə düşmüş bir dövlət kimi davranırdılar. Onun torpaqlarını necə bölüşdürmək, kimə nə qədər torpaq payı düşəcək, nəhayət, türk millətinin taleyi necə olacaq - bütün bunların yadlar tərəfindən "həll" olunması gündəmdə idi. Həmin dövrdə vaxtilə ABŞ-ın Türkiyədəki səfiri olmuş Henri Morqantaunun ABŞ-ın prezidenti Vudro Vilsona göndərdiyi yazılı məktubunda və memorandumunda vurğulanan fikirlərin təsadüf olmadığı təsdiq edilir. H.Morqantau yazırdı ki, Türkiyəni əsasən üç hissəyə bölmək olar: 1) Konstantinopol və onun ətrafı; 2) türk əhalisinin yaşadığı Anadolu; 3) Ermənistan.

# tariximizin güzgüsü

## A.A.Bakıxanov adına Tarix İnstitutunda elmi konfrans keçirildi







Tofiq NƏCƏFLİ



Cəbi BƏHRAMOV




Vaqif ABIŞOV



İlqar NİFTƏLİYEV




Rəşad RÜSTƏMOV




Akif VƏLİYEV

Qərb dövlətlərinin planında Osmanlı dövlətini həm Asiyadan, həm də Avropadan uzaqlaşdıraraq, yalnız mərkəzi İstanbul olmaqla (İstanbul məsələsi də sual altında idi) kiçik bir ərazidə onun mövcudluğuna razılıq vermək fikri dururdu.

"Azərbaycan" qəzetinin səhifələrində Türkiyənin ərazi bütövlüyü, onun dünyanın müsəlman əhalisi tərəfindən müdafiə olunması, ayrı-ayrı bölgələrdə xalqın müqavimət hərəkatının başlanması və s. məsələlərə xüsusi yer verilmişdir. Məsələn, "Azərbaycan" qəzetinin 1919-cu il 3 aprel tarixli sayında qeyd edilirdi ki, bütün türk xalqı və müsəlman dünyası çox diqqətlə Osmanlı dövlətinin taleyini izləməkdədir. Onlar Türkiyə imperiyasına və Türk Sultanına özlərinin vahid xəlifəsi kimi baxırdılar.

"Azərbaycan" qəzetinin 1919-cu il 27 iyul tarixli sayında "Britaniya müsəlmanlarının qeydləri" başlığı altındakı bir yazıda Hindistan müsəlmanlarının İngiltərənin baş nazirinə göndərdikləri müraciətdən bəhs olunurdu. Həmin müraciəti Hindistanın bütün müsəlman nümayəndələrinin və Mədrəsə Qanunvericilik Şurası üzvlərinin adından Ağa xan, Yaqub Həsən, lord Hedle və başqaları imzalamışdılar. Britaniya təbəəsi olan müsəlmanların baş nazirə ünvanladıqları müraciətin əsas qayəsi Türkiyə ərazisinin parçalanmasına imkan verməmək və sultan hakimiyyətinin İstanbulda qalması idi. Bu dövrdə bütün müsəlmanlar arasında, Çindən Atlantik okeanına qədər, Malayziya yarımadasından cənubi Afrikaya qədər Türkiyəni təhdid edən təhlükə ilə əlaqədar ümumi narahatlıq özünü göstərməkdə davam etmişdir.

"Azərbaycan" qəzetinin 1920-ci il 10 fevral tarixli nömrəsində çap olunmuş başqa bir məqalədə isə Böyük Britaniya ilə Misir, Hindistan və ümumiyyətlə, bütün Asiyanın müsəlman əhalisi arasındakı qarşılıqlı münasibətləri tənzimləmək, eləcə də bu ölkələrdə antidövlət əleyhinə çıxışları birdəfəlik ləğv etmək üçün Türkiyə məsələsinin tezliklə həll edilməsi göstərilirdi. Həmin məqalədə qeyd olunurdu ki, məsələ həll olunarkən Türkiyə əziyyət çəkməməlidir. Əks-təqdirdə müsəlmanların narazılığı qarşısıalınmaz xarakter ala bilər.

Qürurverici haldır ki, bütün dünya türkləri də Böyük Türkiyənin bütöv olması və parçalanmaması üçün səslərini qaldırmışdılar. Məsələn, "Azərbaycan" qəzetinin 3 fevral 1920-ci il tarixli sayında çap olunmuş "Sovet Rusiyasından gəlmiş türk-tatar mühacirlərinin qətnaməsi" başlığı altındakı bir yazıda Volqa-Ural türk-tatar xalqlarının Antanta dövlətlərinə müraciət etmələrindən və Türkiyə dövlətinin parçalanmasına qarşı olmalarından bəhs olunmuşdur.

Hətta bəzi Qərb dövlətlərinin nümayəndələri Türkiyənin mövqeyini müdafiə etməkdən çəkinmirdilər. Məsələn, İngiltərənin İcmalar palatasının üzvü general Sirens palatanın iclaslarının birində Türkiyənin müdafiəsi və onun suveren hüquqları ilə bağlı böyük bir çıxış etmişdir. Onun bu çıxışına görə İngiltərədə Türkiyəni müdafiə edən cəmiyyət adı çəkilən deputata öz təşəkkürünü bildirmişdir.

"Azərbaycan" qəzetinin səhifələrində Türkiyə xalqının müqavimət hərəkatı haqqında materiallar da çap olunmuşdur. Həmin materiallarda Mustafa Kamal Paşa başda olmaqla Anadolu və Rumeli milli təşkilatının müttəfiq dövlətlərin Türkiyəni bölüşdürmək siyasətinə qarşı güclü və barışmaz mövqedə durması və xalqın müqavimətini təşkil etməsi məsələləri öz əksini tapmışdır.

"Azərbaycan" qəzetində çap olunmuş materiallarla yaxından tanış olduqdan sonra bir daha yəqin edirsən ki, istər Türkiyə hökuməti, istər türk xalqı vətənin taleyinə biganə qalmamış, hər nə olursa-olsun dövlətçiliyin və vətənin bütövlüyünü qoruyub saxlamağa çalışmışdılar.

Beləliklə, Qərb dövlətlərinin bütün cidd-cəhdlərinə baxmayaraq, Türkiyə xalqı Mustafa Kamal Paşa Atatürkün rəhbərliyi altında öz varlığını, dövlətçiliyini qoruyub saxlaya bilmişdir.

***Tarix İnstitutunun "Azərbaycanın sovet dövrü tarixi" şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent İlqar NİFTƏLİYEV** elmi konfransda etdiyi "1918-1919-cu illərdə İrəvan quberniyasında azərbaycanlıların soyqırımı "Azərbaycan" qəzetinin səhifələrində" mövzusunda məruzəsini bu sözlərlə başladı:*

- Azərbaycan mətbuatı tarixində 1918-1920-ci illər bütün əvvəlki dövrlərə nisbətən ən yüksək inkişaf mərhələsi sayılır. Bu dövrün mətbuatı həm keyfiyyət, həm də kəmiyyət baxımından ölkə həyatının canlı salnaməsinə çevrildi. Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan "Azərbaycan" qəzetinin başlıca məramı yenicə qurulmuş milli hökuməti müdafiə etmək, ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatını əks etdirmək idi. Qəzetin səhifələrində rəsmi dövlət qərarları, analitik məzmunlu materiallar dərc edilirdi. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinə, onun əsas istiqamətini təşkil edən Azərbaycan-Ermənistan münasibətlərinə qəzetin səhifələrində geniş yer ayrılırdı. Bu mənada "Azərbaycan" qəzeti qiymətsiz mənbədir. 1918-1920-ci illərdə "Azərbaycan" qəzetinin səhifələrində İrəvan quberniyasında azərbaycanlıların soyqırımının sarsıdıcı mənzərəsi öz əksini tapmışdır. Minlərlə həmvətənimizin soyqırımını qarşısına məqsəd qoymuş ermənilərdən çəkdiyi qeyri-insani zülmü, çıxılmaz vəziyyətini təsvir edən qəzet səhifələrini həyəcansız oxumaq mümkün deyildir. Onların arxasında nə qədər müsibət, dəhşət, ölüm dayandığını təsəvvürə gətirmək qeyri-mümkündür.

1917-ci il Qafqaz təqviminin məlumatına görə İrəvan quberniyasında müsəlmanların sayı 423123 nəfər idi. 1918-ci ilin yanvarından may ayına kimi, yəni türk qoşunları İrəvan quberniyasına daxil olana qədər, burada ermənilər tərəfindən 300-dən çox müsəlman kəndi dağıdılmış, onların əhalisi isə qətllərə və zorakılıqlara məruz qalmışdı. İrəvan quberniyasında müsəlmanlara qarşı erməni hərbi hissələrinin həyata keçirdiyi etnik təmizləmələrin məqsədi həmin ərazilərdə Osmanlı İmperiyasından olan erməni qaçqınlarını yerləşdirmək və gələcəkdə Ermənistan dövləti yaratmaq idi. Bu hadisələrə öz münasibətini bildirən "Azərbaycan" qəzeti 1918-ci il 25 sentyabr tarixli sayında yazırdı: "Rus ordusunun gedişindən sonra daşnaklar Zaqafqaziya müsəlmanları ilə əlaqələrini yenidən nəzərdən keçirmək və onlarla yaxşı münasibətlər qurmaq əvəzinə köhnə siyasətlərini davam edirlər. Cəbhəyə getmək əvəzinə erməni hərbi birləşmələri İrəvan quberniyasının hüdudlarında qalır və yüzlərlə müsəlman kəndini atəşə tuturlar, erməni qaçqınları isə zorla təmizlənmiş ərazidə yerləşdirilir. Böyük Sürməli qəzası müsəlman əhalisindən təmizlənir. Naxçıvan şəhəri talana məruz qalır".

29 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti İrəvan şəhərini Ermənistan Ararat Respublikasına güzəştə getdi. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı Fətəli xan Xoyski İrəvan və ətrafındakı torpaqların ermənilərə verilməsi barədə Milli Şuranın 29 may 1918-ci il tarixli qərarından dərhal sonra Xarici işlər naziri Məhəmməd Həsən Hacınskiyə verdiyi rəsmi göstərişdə yazırdı: "Biz ermənilərlə bütün mübahisələri bitirdik, onlar ultimatumumuzu qəbul edəcəklər və müharibəni dayandıracaqlar. Biz İrəvanı onlara güzəştə getdik".

1918-ci il iyunun 4-də Batumda Osmanlı dövləti ilə Ararat Respublikası arasında bağlanmış müqaviləyə əsasən sonuncunun ərazisi 9 min $km^2$ müəyyən edildi. Yeni yaradılmış Ermənistan Ararat Respublikası Göyçə gölü ilə Osmanlı dövlətinin yeni sərhədləri arasındakı dar dağlıq ərazini əhatə edirdi, əhalisi isə cəmi 400 min nəfər idi. Onlardan təxminən 80 mini azərbaycanlılar idi. Müqavilənin VI bəndinə əsasən Ermənistan hökuməti öz ərazisində yaşayan müsəlman əhalisinin təhlükəsizliyini, azad inkişafını, ana dilində təhsil almaq, dini ayinlərin sərbəst icrasına şərait yaratmaq haqqında öhdəliklər götürürdü. Bu hadisəyə qiymət verən "Azərbaycan" qəzeti həmin ilin 25 sentyabr tarixli sayında yazırdı: "...ürək ağrısı ilə qədim müsəlman xanlığının mərkəzi - İrəvan şəhəri ermənilərə verildikdən sonra, daşnaklar nə qədər çətin olmasına baxmayaraq, Zaqafqaziya müsəlmanlarına qarşı düşmənçiliyini unutmalıdırlar, onlarla çalışıb yaxşı qonşuluq münasibətləri qurmalıdır". Lakin sonrakı hadisələr onu göstərdi ki, erməni dövlətində hakimiyyətə gələn "Daşnaksütyun" partiyası keçmiş İrəvan quberniyasının ərazisində yaşayan müsəlman əhalisinə qarşı soyqırımı siyasətini dövlət səviyyəsində həyata keçirməyə başladı.

***Tarix İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Rəşad RÜSTƏMOV** "Azərbaycan" qəzetinin səhifələrində Azərbaycan Xalq Cümhuriyyətinin problemlərinin işıqlandırılması (müasir dövr)" mövzusunda məruzəsində diqqətə çatdırdı ki, "Azərbaycan" qəzetinin özəl xüsusiyyətlərindən biri onun Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət qəzeti kimi fəaliyyət göstərməsi olmuşdur. O, dedi:*

- Ölkəmizin sovet qoşunları tərəfindən işğal edilməsi bu qəzetin nəşrini müvəqqəti olaraq dayandırmışdı. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra qəzet yenidən fəaliyyətə başladı. Lakin tarixi yaddaşlarda "Azərbaycan" qəzeti uzun illər boyu Azərbaycan Xalq Cümhuriyyətinin simvollarından biri kimi qalmışdır.

Onu da qeyd etmək lazımdır ki, qəzet AXC tarixinin müasir dövrdə populyarlaşması sahəsində çox mühüm işlər görmüşdür. Səhifələrində cümhuriyyət tarixinə daim böyük diqqət ayırmışdır. Həm publisist, həm də elmi məqalələrə geniş yer vermişdir.

2018-ci ilin 26 sentyabrında "Azərbaycan" qəzetində dərc edilən "Azərbaycan ədliyyəsi ölkədə hüquqi dövlətin yaradılmasına xidmət edir" başlıqlı məqalə bu səpkidə olan maraqlı yazılardandır. Həmin məqalədə Azərbaycanda Ədliyyə Nazirliyinin və Məhkəmə Palatasının yaranma prosesi öz əksini tapmışdır. Burada müstəqil respublika hökumətinin dövlət orqanlarının təşkilində rastlaşdığı çətinliklər və onların aradan qaldırılması məsələlərinə geniş yer verilmişdir. Müəllif haqlı olaraq yazır ki, milli kadrların azlığı bu sahədə əsas çətinliklərdən biri olmuşdur. Məqalədə Azərbaycan hökumətinin hüquqi dövlətin yaradılması sahəsində fəaliyyətinə də toxunulmuşdur. Qeyd edək ki, bir sıra Avropa dövlətlərinin XX əsrin ortalarında, yaxud sonlarında qəbul etdiyi hüquqi dövlət ideyası artıq ötən əsrin əvvəllərində AXC liderlərinin diqqət mərkəzində olmuşdur.

Cümhuriyyət xadimləri hüquqi dövlət quruculuğuna müstəqil dövlətin yaradıldığı ilk gündən başlamışdılar. AXC-nin hüquqi dövlətin qurulmasına yönəlmiş bu fəaliyyəti Müseyib Kazımovun məqaləsində də öz əksini tapmışdır. Müəllifin göstərdiyi kimi, hüquqi dövlətin yaradılması üçün əsas İstiqlal Bəyannaməsi olmuşdur. Bu bəyannamədə elan edilmiş prinsiplər sonralar AXC vətəndaşlarının hüquqlarının müdafiəsini təmin edən bir çox qanunların işlənməsi üçün hüquqi baza rolunu oynamışdır. Bu proses Azərbaycanın bolşevik qoşunları tərəfindən işğal edilməsi nəticəsində dayandırılmışdır.

2008-ci il 27 avqust nömrəsində dərc olunmuş Şamil Əfəndinin "Taleyimizin aynası" adlı məqaləsi 1917-1920-ci illər Azərbaycan mətbuatının tarixinə həsr edilmişdir. Müəllif həmin dövrün mətbuat orqanlarının əsasən siyasi xarakter daşıdığını və əsas vəzifəsinin təmsil etdiyi siyasi ideologiyanın kütlələr arasında yayılmasından ibarət olduğunu diqqətə çatdırmışdır.

Məqalədə həmçinin AXC dövründə mövcud olmuş problemlərdən və onların həllində milli mətbuatın dövlət orqanları ilə birgə iştirakından bəhs edilmişdir.

***Tarix üzrə fəlsəfə doktoru Akif VƏLİYEV** "Qafqaz İslam Ordusu hərəkatı "Azərbaycan" qəzetində" mövzusunda məruzəsində tarixin çətin, ziddiyyətli və mübahisələrin meydan müharibələrində həll olunduğu I Dünya savaşının sonunda "Azərbaycan" qəzetinin yarandığını vurğuladı:*

- Təkcə adının çəkilməsi uğrunda böyük mücadilə aparılan gənc, müstəqil dövlətin rəmzlərini səhifələrinə, sütunlarına daşıyan "Azərbaycan" ciddi çətinliklərlə ərsəyə gətiriləndə Qafqaz İslam Ordusu qoşunları, milli orkestr Güzdəkdən Bakıya nümayişə hazırlaşırdı.

Böyük zəfəri və qələbə sevincini sentyabrın 15-də "Azərbaycan" xəbər verdi. Mətbəədə kağız və hürufat çatışmazlığı qələbə müjdəli qəzetin ilk sayının çapını ləngidə bilmədi.

"Azərbaycan"ın bu sayı xalqın azadlıq ruhunu əks etdirən yazılarla, hərbi faktlar və informasiyalarla zəngindir. İlk sayda xeyli təbrik teleqramları dərc olunub ki, bu təbriknamələrdən ən önəmlisi Azərbaycan milli hökumətinin baş naziri Fətəli xan Xoyskiyə məxsusdur. F.Xoyski Qafqaz İslam Ordusu komandanlığına, əsgər və zabitlərə öz səmimi minnətdarlığını bildirirdi.

"Azərbaycan" sentyabrın 19-da dərc olunan ikinci sayında Türkiyədə danışıqlar aparan M.Ə.Rəsulzadənin baş nazir Fətəli xan Xoyskiyə ünvanladığı təbrik teleqramını xalqa çatdırdı.

Bakı azad olunduqdan sonra 31 mart soyqırımına görə nəşrini dayandırmış bir çox qəzetlər fəaliyyətlərini bərpa etdilər, Türkiyə və Gürcüstanla media əlaqələri, xəbərləşmə imkanları bərpa olundu. Azərbaycan mətbuatında Türkiyəyə, Türkiyə mətbuatında da Azərbaycan mətbuatına istinadən xəbərlər çap olundu və analitik yazıların, reportajların dərcinə üstünlük verildi.

Anadoluda nəşr olunan "Yeni gün" qəzetinin ilk səhifəsində dərc etdiyi Bakının azad olunması xəbərini "Azərbaycan" qəzeti öz səhifələrində əks etdirərək yazırdı: "Bakıda artıq Azərbaycan bayrağı dalğalanır. Azərbaycan hərbi hissələri Bakını azad etmişlər. Eyni dinə və eyni qana sahib olduğumuz qardaşlarımızı təbrik edirik. Bəlli olduğuna görə, axır vaxtlar Azərbaycanın paytaxtı olan Bakı kiçik bolşevik dəstələrinin, erməni avantüristlərinin əlində idi ki, onu da azərbaycanlıların milli-hərbi qüvvələri sıxışdırıb çıxardı".

N.Y. imzası ilə "Azərbaycan gəncləri"nə müraciət edən İstiqlal savaşının əsas ideoloqlarından biri - "Tərcüman", "Açıq söz" qəzetlərində yazıları ilə çıxış edən Nəsib bəy Yusifbəyli bu tarixi günə geniş məqalə həsr edərək gəncləri hərbi səfərbərliyə çağırırdı. O, gərgin hərbi-siyasi dönəmdə müstəqil Azərbaycanın istiqlalının qorunmasında ordu quruculuğunu əsas götürür, hər bir vətəndaşı bu yolda səfərbərliyə səsləyirdi.

Sentyabrın 17-də Bakıya daxil olan Azərbaycan hökuməti yaranan qarşıdurmanın milli qırğın səviyyəsinə qalxmasına imkan vermədi.

Xalqımızın bu bayram əhvali-ruhiyyəsinə toxunan "Azərbaycan" qəzeti yazırdı: "Bizim də həyatda yaşamağa hüququmuz vardı. Heç bir zirehli maşın, hidroplan, aeroplan, məftilli çəpər, mina və sair texniki qurğu, heç bir ingilis, heç bir qüvvə və onların havadarları tarixin təbii axarına mane ola bilmədilər. Bakının 50 minlik qoşun və texnika ilə birlikdə kiçik bir qüvvənin həmləsi qarşısında sükutu başqasının fəlakəti üzərində öz xoşbəxtliyini qurmaq istəyənlərə ibrət dərsi olmalıdır".

Paytaxtın geri alınmasından sonra mətbəəsi 1918-ci ilin 31 martında dağıdılan "Açıq söz", "Bəsirət", "Kaspi" və bir çox qəzetlər öz fəaliyyətini bərpa etdi.

Azərbaycan paytaxtının türk əsgərinin köməyi ilə azad edilməsi Azərbaycan xalqına sonsuz sevinc gətirdi. Ordu komandanlığı sentyabrın 16-da bu təntənəli tarixi qeyd etmək üçün əmr verdi, hərbi hissələrin paradını, rəsmi keçidini təşkil etdi.

Qəhrəman əsgərlərin əhatəsində rəsmi keçidin təşkil olunduğu yerə gələn Xəlil və Nuru paşalar, Əliağa Şıxlınski, Həbib bəy Səlimov, Nazim bəy Ramazanov xalq tərəfindən böyük sevgi, sonsuz təşəkkür hissləri, həmrəylikdən doğan şüarlarla qarşılandı.

Qafqaz İslam Ordusu komandanı Nuru Paşa öz xatirəsində gənc Azərbaycan Cümhuriyyətində bir çox məsələlər kimi, mətbuatın vəziyyətinə də toxunaraq yazırdı: "Bakıda "Azərbaycan" namında bir türkcə (rəsmi hökumət qəzetəsi) və bir də rusca qəzet nəşr edilirdi. Bu qəzetlər mövqe komandanlığından bir senzor heyəti tərəfindən müraqiə edilirdi".

Fətəli xan Xoyskinin rəhbərlik etdiyi milli hökumət üzvləri ilə yanaşı, Qafqaz İslam Ordusunun komandanlığı əhali ilə ünsiyyəti artırır, onların problemləri ilə yaxından tanış olur, hətta Nuru Paşanın qəbul saatları ilə bağlı qəzetlərdə elanlar dərc edilirdi.

Bütün bu tədbirlərlə yanaşı, ordu komandanlığı ətraf rayonlara səfər edir, xalqla birbaşa təmas qururdu. Nuru Paşanın növbəti səfərlərindən biri oktyabrın 5-də Qubaya oldu. Səfərlə bağlı reportaj dərc edən "Azərbaycan" qəzeti yazır ki, ruhanilər başda olmaqla bir neçə min əhali Paşa cənablarını böyük sevgi və coşqu ilə qarşılayıb.

Azərbaycanın istiqlala qovuşması üçün böyük fədakarlıqlar göstərən, Bakı azad olduqdan sonra "Baku" ləqəbini götürmüş Mürsəl Paşa qəzetlərin verdiyi məlumata görə, şəhər xəstəxanalarına gedib yaralı əsgərlərə baş çəkib, onlara tütün, təsbeh paylayıb, vəziyyətləri ilə maraqlanıb. Bütün bu addımlar insanlarda orduya inam, sevgi yaradır, əhali rahat dolanır, asudə fəaliyyət göstərirdilər.

Türk əsgəri ilə Azərbaycan oğullarının çiyin-çiyinə verib vətənin istiqlalını qorumağını, müstəqil milli ordumuzun formalaşmağını istəməyən qüvvələr isə şayiələr yayır, Türkiyə Ordusunun tezliklə geri çəkiləcəyi barəsində danışırdılar. Bu cür məlumatların yayılmasının qarşısını almaq üçün Nuru Paşa qəzetlərdə çıxış etməyə məcbur olurdu: "Mənə çatan məlumatlara görə bəd niyyətli insanlar Azərbaycandakı Osmanlı hökumətinin qoşunlarının geriyə - Türkiyəyə qaytarılmasına dair şayiələr yayırlar. Osmanlı dövlətinin hazırda Azərbaycan ərazisində olan bir qrup əsgərə ehtiyacı yoxdur. Hərbi hissələrin yeniləri ilə əvəzlənməsi, xidmət yerlərinin dəyişdirilməsi heç də qoşunların geri çəkilməsi demək deyil. Tanrıya şükür ki, Azərbaycan hər cür düşmən niyyətlərinə duruş gətirmək üçün kifayət qədər güclüdür və gələcəkdə də bu cür olacaqdır".

Məqsədli şəkildə yayılan bu cür şayiələrə baxmayaraq Bakı öz rahat həyatını yaşayır, şəhərdə milli ab-hava hökm sürürdü.

Gəncədə milli zabit məktəbinin açılışına xüsusi diqqət yönəldən "Azərbaycan" qəzeti milli hərbi kadrların hazırlanmasının əhəmiyyətini xüsusi vurğulayır, tədbirdən irihəcmli reportaj çap edərək bu buraxılış mərasiminin tariximiz və millətimiz üçün nə qədər böyük əhəmiyyət daşıdığını qeyd edirdi.

Azərbaycanın müstəqilliyinin təmini üçün ordu quruculuğuna önəm verən milli mətbuat orqanlarında əsgərliyin hər bir insan üçün xüsusi əhəmiyyət daşıdığı, islamın da vacib şərtlərindən olduğu qeyd olunur, bu yöndə təbliğata önəm verilirdi.

Birmənalı qeyd etmək olar ki, cümhuriyyətin şərəfli tarixini özündə yaşadan "Azərbaycan"ın fəaliyyət istiqamətləri Qərb mətbuatının əsas prinsipləri üzərində qurulub. Müstəqilliyin qorunması qəzetin əsas qayəsi olub.

1920-ci il yanvarın 14-dən etibarən Azərbaycan Xalq Cümhuriyyəti müstəqilliyinin Avropada təsdiqindən sonrakı dönəmlər "Azərbaycan" üçün yeni şanslar yaratdı. Amma təəssüf ki, bu dövr qısa oldu və 1920-ci il aprelin 28-i müstəqil Azərbaycan Rusiya tərəfindən işğal altına alındı.

*Elmi konfransda Tarix İnstitutunun slaydında əksini tapmış "Azərbaycan" qəzeti ilə bağlı olduqca maraqlı, zəngin materiallar da nümayiş etdirildi. Həmin slaydı hazırlayan **Tarix İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Elmar MƏHƏRRƏMOV** dedi:*

- Mən bu qəzetin daimi oxucusuyam. Düşünürəm ki, "Azərbaycan"ın fəaliyyətinin nə qədər geniş, mövzularının əhatəli olduğunu yalnız onu gündəlik oxuyanlar bilər.

Ona görə də slaydımızda yalnız institutumuza aid olan, fəaliyyətimizi əks etdirən, yaxud bu qəzetdə verilmiş ayrı-ayrı əməkdaşlarımızın məqalələrini yerləşdirmirik. Burada "Azərbaycan" qəzetinin bütün fəaliyyətini - həm bugününü, həm də öz tarixinə, öz kökünə münasibətini əks etdirməyə çalışırıq. Vaxtaşırı bu qəzetin ilkin nömrələrinə müraciət etməsi, çox maraqlı məlumatlar verməsi diqqətəlayiqdir. Bizim slaydda da "Azərbaycan" qəzetinin 1918-ci ildən bugünə qədərki bütün fəaliyyəti əhatə olunub. Mən çalışmışam qəzetin tarixi və bu günü haqqında təsəvvür yaradım. Slaydda cümhuriyyətin yaranması ilə bağlı sənəd, ölkəmizin o dövrdə çəkilmiş və Fransada da təqdim olunmuş xəritəsini yerləşdirmişəm. Həmin xəritə ki, ölkəmizin XX əsrin əvvəllərində geniş ərazilərə malik olduğunu göstərir. Sovet hökuməti Azərbaycanda hakimiyyəti ələ keçirdikdən sonra torpaqlarımızın bir hissəsində ermənilərə dövlət yaratdı, bir hissəsini Gürcüstana və bir hissəsini Rusiyaya verdi.

Slaydımızda "Azərbaycan" qəzetinin Azərbaycan, həm də sonra rus dillərində dərc olunmuş ilk nömrələri, ilk redaktorları Ceyhun Hacıbəyli, Şəfi bəy Rüstəmbəyov, Üzeyir bəy Hacıbəyli haqqında geniş məlumatlara yer verilib.

Bu mətbu orqan Azərbaycan yenidən müstəqilliyinə qovuşduqdan sonra fəaliyyətini davam etdirdi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı, həmin dövrdə həyata keçirilən işlər, dövlətin həm xarici, həm də daxili siyasəti ilə bağlı "Azərbaycan" qəzetinin səhifələrində dərc olunmuş əhəmiyyətli yazılar və tarixi şəkillər qalır. Həmin materialları slaydımızda yerləşdirmişəm.

İlham Əliyevin hakimiyyətə gəlməsi və Ulu Öndər Heydər Əliyevin siyasətini davam etdirməsi, dövlətimizin istər beynəlxalq aləmdə qazandığı uğurlar, istərsə də sosial, iqtisadi, mədəni sahələrdə yüksək tərəqqiyə nail olması "Azərbaycan" qəzetində geniş işıqlandırılır. Tariximizi əks etdirən həmin materialları da slaydımızda əks etdirməyə çalışmışam.

*Tədbirin sonunda **Bəxtiyar SADIQOV** Tarix İnstitutuna "Azərbaycan" qəzetinin cümhuriyyət dövründə dərc edilmiş nömrələrini elektron variantda, **Yaqub MAHMUDOV** isə qəzetə institutun nəşrlərini - "Nadir şah Əfşar: tarixin gedişini dəyişdirən dahi sərkərdə", "Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin dövlətçilik fəaliyyətinin Tiflis dövrü" və "Azərbaycan Xalq Cümhuriyyətinin tarixi Hindistan Milli Arxivinin sənədlərində" kitablarını təqdim etdi.*

***"AZƏRBAYCAN"***

# Dövlətin təhlükəsizliyi və milli maraqlar hər şeydən üstün olmalıdır

Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov ötən il Gəncədə baş vermiş terror aktlarının ildönümü ilə bağlı KİV-ə xüsusi açıqlama verib. AZƏRTAC açıqlamanı təqdim edir. Açıqlamada deyilir:



- Azərbaycan dövlətçiliyinə qarşı qəsd aktı kimi dəyərləndirilən Gəncə hadisələrindən bir il ötür. Ötən müddətdə aparılmış istintaq tədbirləri nəticəsində ortaya çıxan faktlar bir daha təsdiqlədi ki, Gəncə hadisələri bəzi dövlətlərin radikal klerikal dairələrinin, separatçıların və ölkə daxilində siyasi fəaliyyət pərdəsi altında şəxsi ambisiyalarını həyata keçirmək istəyən qrupların dövlətə və milli maraqlarımıza qarşı birgə məkrli təxribatı idi. Mediada, xüsusən sosial mediada geniş yayılmış məlumatlardan görünür ki, həmin qüvvələrin ötən il reallaşdırmağa çalışdıqları ssenarinin puç edildiyi, vətəndaşlarımızın dövlətçiliyin keşiyində durduğunu nümayiş etdirdiyi Gəncə hadisələrinin ildönümü ilə əlaqədar üzvlərinin əksəriyyətini Azərbaycanın keçmiş vətəndaşları təşkil edən, radikal islamçı qruplaşmalardan biri yenidən fəallaşıb. Qruplaşmanın sosial şəbəkələrdəki səhifə və profillərində, habelə bəzi dövlətlərin klerikal dairələri tərəfindən idarə olunan saytlarda fəallaşması birmənalı olaraq ifrat dini radikallığın, fundamentalizmin dəstəklənməsi kimi dəyərləndirilə bilər.

Dini şüarlarla pərdələnən, təxribatçı, niyyəti dövlətlə xalq arasında inamsızlıq, mümkün olarsa düşmənçilik toxumları səpmək olan bəzi internet resurslarında Gəncədə törədilmiş terror aktının əsas personajı, Rusiya vətəndaşı Yunis Səfərovun Suriyada döyüşlərdə iştirakını təsdiqləyən kadrlar nümayiş etdirilir və onu əsl "qəhrəman" kimi populyarlaşdırmağa cəhdlər olunur, xanımının hadisədən dərhal sonra etdiyi müraciət təkrar-təkrar yayımlanır. Təəssüf doğuran odur ki, özlərinin demokrat və dünyəvi dövlət tərəfdarı olduqlarını iddia edən bəzi müxalifət liderləri və fəalları da terroru təşviq edən belə bir kampaniyaya dəstək verir, ifrat ekstremizmi özünə ideologiya seçmiş xarici qruplaşmaların istifadə etdiyi şüarları təkrarlayır, bu səpkidə çağırışlar səsləndirir, ölkəmizin çoxəsrlik dini dözümlülük mühitini, tolerant imicini şübhə altına alırlar.

Bir sözlə, demokratiya dəyərlərinə sadiq olduğunu iddia edən bu tipli müxalifətin əslində həmin dəyərlərə qənim kəsilənləri, radikalizmi, ifrat dini fundamentalizmi dəstəklədiyi göz önündədir. Belə olan halda, həmin müxalifətə, görəsən, hansı Azərbaycan gərəkdir? Dünyanın inkişaf etmiş ölkələri sırasında yer alan, sabit, qüdrətli və demokratik Azərbaycan, yoxsa Sudan, Somali, Liviya, Suriya və s. ölkələr kimi amansız daxili savaşın, qanlı xaosun, faciəvi vətəndaş qarşıdurmasının və terror qruplaşmalarının tüğyan etdiyi poliqon? Bəlkə onlar Azərbaycanı orta əsrlərin qaranlıq dövrünə qaytarmaq, ölkəmizi şəriət qanunları ilə idarə olunan məkana çevirmək istəyirlər?..

Ötən il iyul ayının 3-də axşam Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına qarşı sui-qəsd törədən birinin cinayətinin terror xarakteri, cinayəti törədənin xarici vətəndaş olduğu, Azərbaycan dövləti tərəfindən sanksiyalaşdırılmayan döyüş əməliyyatlarında iştirak etdiyi məlumdur. Yerli və xarici mediada dərc olunmuş materiallarda Y.Səfərovun həyat yoldaşının bir neçə dəfə yayımlanmış videomüraciətlərində onun bu əməli şəxsi motivlərlə, qisas naminə və ya bəzilərinin iddia etdiyi kimi, "sosial zülmə" qarşı etiraz olaraq deyil, məhz xaricdə qanunsuz silahlı birləşmələrin tərkibində döyüşdüyü "ideallar" naminə, yəni Azərbaycanda "şəriət dövləti yaratmaq" üçün törətdiyi də bəlli olub. Gəncədə terakt baş verəndən dərhal sonra radikal dini fundamentalizmi təbliğ edən Facebook səhifələri və saytlar, habelə Vətənə xəyanət ittihamı ilə mühakimə edilmiş separatçılarla bağlı kütləvi informasiya vasitələri Yunis Səfərovu yeni "Gəncəbasar qisasçısı", "qəhrəman" elan etməyə tələsdilər. Bu dəfə də onlara Avropadakı anti-Azərbaycan müxalifəti və onların rəhbərlik etdiyi internet kanallarından, orada yaşayan antimilli ünsürlərdən kömək gəldi. Rusiya və digər xarici ölkələrdə separatçı kimi "ad-san qazanmış" çevrələr də cinayətkarın müdafiə komitəsini yaradıb xarici dövlət rəsmilərinə müraciət etdilər.

Xatırladım ki, bu teraktdan bir ay əvvəl, 2018-ci il mayın 28-də ABŞ-ın nüfuzlu "Foreign Policy" nəşri "Gəncə keçidi"nin Qərb üçün əhəmiyyəti haqqında yazı dərc edərək baş verəcək təxribatlar haqqında xəbərdarlıq edirdi. Bu gün terroru təbliğ edən radikalların və onların havadarlarının yenidən fəallaşması, Azərbaycana təhdidlər ünvanlamaları isə Gəncə hadisələrinin ildönümü ilə yanaşı, TANAP-ın istifadəyə veriləcəyi vaxta təsadüf edir. Qəribə deyil ki, Azərbaycan dövləti və onun müstəqil siyasətinin əleyhinə son dövrlərdə Ermənistan, bəzi dövlətlərdəki klerikal dairələr, ekstremistlər, xarici ölkələrə qaçmış, sadəcə, pula və məişət rahatlığının təminatına can atan bəzi azərbaycanlılar tərəfindən aparılan təmərküzləşmiş, təhlükəli ideoloji təxribat bu günlərdə yenidən canlanıb.

Demokrat və dünyəvi olduqlarını vurğulayanlar mövqe və demokrat prinsipiallığı nümayiş etdirərək bu tipli anti-Azərbaycan dairələrini və onların ölkəmizdəki uzantılarını qınamaq əvəzinə, terror aktlarına görə həbs olunmuş şəxsləri qəhrəmanlaşdırır, merkantil maraqların təminatı, yeni maliyyə imkanları əldə etmək naminə onları vicdan məhbusu elan edərək xüsusi siyahılara salır, azadlığa buraxılmalarına çalışırlar. Yaxın Şərq və Şimali Afrikada son illərdə baş verən proseslər göstərdi ki, hər hansı cəmiyyətdə özünü "müxalifət" adlandıran qrup və kəsimlər terrorçunu, yaxud terrorçuları qəhrəman kimi təqdim etməyə, terroru mifləşdirməyə başladıqda cəmiyyət və dövlət belə təhlükəli fəsada qanun çərçivəsində sərt reaksiya verməzsə, hadisələr təhlükəli məcraya yönəlir, ideoloji təxribat vətəndaş müharibəsi, terrorun tüğyan etməsi ilə nəticələnir.

Dövlətin təhlükəsizliyi və milli mənafelər heç bir zaman, heç bir vəchlə və ya şərtlə müzakirə mövzularına çevrilməməlidir. Bəhs etdiyim dəyərlərə kiçik də olsa, təhdid yaranarsa, hər bir azərbaycanlı vətəndaş mövqeyini, milli iradəsini ortaya qoymalıdır. Mövcud həssas vəziyyətdə cəmiyyətimiz qətiyyət və sayıqlıq, vətəndaşlarımız milli dövlətçilik naminə sıx birlik nümayiş etdirməlidir. İctimai rəyə təsir imkanları olan ziyalılarımız daha düşünülmüş şəkildə və həssas davranaraq konkret insanlara bəslənən münasibətlə Vətənin mənafeləri və dövlətin maraqlarını bir-birindən fərqləndirməlidir.

# Bakıda "Azərbaycan mədəni irsi Luvr Muzeyində" adlı sərgi təşkil olunub

UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində Azərbaycan Xalça Muzeyində "Azərbaycan mədəni irsi Luvr Muzeyində" adlı sərgi təşkil olunub.

AZƏRTAC xəbər verir ki, sərgi iyulun 3-dən sentyabrın 30-dək davam edəcək.



Dünya şöhrətli Luvr Muzeyinin daimi ekspozisiyasında sərgilənən üç nadir eksponat ilk dəfə olaraq Bakıda nümayiş etdirilir.

Mədəniyyət naziri Əbülfəs Qarayev serginin açılışında çıxış edərək bildirib ki, Xalça Muzeyi ilə Luvr Muzeyi arasındakı əlaqələr yüksək səviyyədədir. Luvr və dünyanın digər muzeylərindəki eksponatların sırasında Azərbaycanla bağlı kifayət qədər çoxlu əşyalar nümayiş etdirilir. Xalça Muzeyində Luvrda saxlanılan üç Azərbaycan xalçası nümayiş olunur. "Biz, həmçinin ona görə sevinirik ki, Luvr kimi muzeydə Azərbaycan xalqına aid olan bu xalçaların saxlanılması faktı mövcuddur. Mərasimə gələn nüfuzlu qonaqlar bunu görməklə həm də zəngin mədəniyyətimizin şahidi olurlar", - deyə Ə.Qarayev əlavə edib.

Tədbirdə çıxış edən Fransanın Azərbaycandakı səfiri Orelia Buşez bildirib ki, bu, hər iki dövlət arasında əməkdaşlığın inkişafının göstəricisidir. Luvr və Xalça Muzeyi arasında olan bu nadir tədbir hamı üçün çox maraqlıdır və bu gün bu qeyri-adi xalçaları kəşf edirik. Bu tədbir Parislə Bakı arasında olan münasibətləri nümayiş etdirir.



Azərbaycan Xalça Muzeyinin direktoru Şirin Məlikova UNESKO və Xalça Muzeyi arasındakı əməkdaşlığın bariz nümunəsi kimi əhəmiyyətli layihələrdən söz açıb. O, bugünkü tədbirin Luvr Muzeyi ilə ilk birgə layihə olduğunu deyib və sərgidə XVIII əsrin sonu - XX əsrin əvvəllərinə aid nadir Azərbaycan xalçalarının nümayiş olunması haqqında məlumat verib. Vurğulanıb ki, layihə "Azərbaycan Respublikasında xalça sənətinin qorunması və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi istiqamətində Azərbaycan Xalça Muzeyinin töhfəsidir.

Sərgi Mədəniyyət Nazirliyi, Xalça Muzeyi, Fransanın Azərbaycandakı səfirliyi, Luvr Muzeyi, Azərbaycanda Fransız İnstitutu və "Silk Way West Airlines" QSC-nin təşkilatçılığı ilə həyata keçirilir.

# UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında milli mülkiyyətlərə aid məsələlər müzakirə edilib

## UNESKO-nun Ümumdünya İrs Siyahısına salınan mədəni mirasın qorunma vəziyyəti haqqında hesabat dinlənilib

Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası iyulun 3-də milli mülkiyyətlərə aid məsələlərin müzakirəsi ilə işini davam etdirib.

AZƏRTAC xəbər verir ki, sessiyanın növbəti günündə UNESKO-nun Ümumdünya İrs Siyahısına salınan mədəni mirasın qorunma vəziyyəti haqqında hesabat dinlənilib.

Tədbiri açan sessiyanın təşkilat komitəsinin sədri, Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayev müzakirə olunacaq hesabatdan danışıb və hər kəsi müzakirələrdə fəal olmağa çağırıb.

Sessiyada iştirakçı ölkələrin nümayəndələri Asiya-Sakit okean regionunda yerləşən mədəni mirasın real vəziyyətindən söz açıblar.

Tədbirdə Norveç, Braziliya, Macarıstan, Tanzaniya, Küveyt, Qvatemala, Tunis, Avstraliya, Azərbaycan, Çin və digər ölkələrin təmsilçiləri təqdim olunan hesabatla bağlı fikirlərini bildiriblər.

Strateji ətraf mühitin qiymətləndirilməsinin vacibliyindən və bu istiqamətdə görülən işlərdən söz açılıb. Bildirilib ki, dialoqun qurulması üçün belə hesabatlar mühüm əhəmiyyət daşıyır. Bütün layihələr monitorinq qrupunun tövsiyəsi əsasında həyata keçirilməlidir. Elektrik stansiyaları bufer zonadan kənarda inşa edilməlidir. İqtisadi inkişaf və ətraf mühit arasındakı əlaqə ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bunlar qarşılıqlı şəkildə müzakirə olunmalıdır.

Azərbaycan Kuba və Çinin Asiya-Sakit okean regionunda yerləşən mədəni mirasın qorunması istiqamətindəki təkliflərini dəstəkləyib. Su və hava mənbələrinin çirklənməsinin qarşısının alınması üçün qoruyucu tədbirlər həyata keçirilməlidir.

Günün birinci yarlısında Hindistan ilə Banqladeşin sərhədində yerləşən, dünyanın ən böyük manqrov meşəsi olan Sundarbanda elektrik stansiyasının tikintisinə dair müzakirələr aparılıb. Bildirilib ki, Banqladeş hökumətinin apardığı bu tikinti ətraf mühitə və milli irsə böyük təhlükədir. Bununla bağlı bir çox ölkələr öz fikir və təkliflərini səsləndiriblər.

Qeyd edək ki, meşənin Hindistandakı hissəsi milli park elan edilib və 1997-ci ildə UNESKO-nun Ümumdünya İrs Siyahısına salınıb.

Bu məsələ ilə bağlı işçi qrup yaradılıb və onlar gün ərzində Sundarbanda elektrik stansiyasının tikintisi ilə bağlı hesabatın müvafiq bəndinə dəyişiklik edəcəklər və bu məsələyə yenidən baxılacaq.

Sessiyada üzv ölkələr müzakirələr zamanı diqqətə çatdırıblar ki, milli parkların qorunması ilə əlaqədar mənbələrin çirklənməsi məsələləri diqqətdə saxlanılmalı, qoruyucu tədbirlər görülməlidir. Küveyt, Zimbabve, Avstraliya, Kuba və Çinin dəniz dibinin dərinləşməsi, monitorinq, tərəflərin idarəçilik planı və milli parklarda qorunan heyvanlarla bağlı əlavə tədbirlər həyata keçirilməlidir.

Sonra gündəliyə uyğun olaraq Vyetnamda Phong Nha Ke Bang milli parkı ilə bağlı məsələ müzakirə edilib. Vurğulanıb ki, parkda tikinti işlərinin aparılması planlaşdırılır və bu, ərazidə flora və faunaya mənfi təsir göstərə bilər. Milli parkın Ümumdünya İrs Komitəsi tərəfindən nəzarətə götürülməsi və buna qarşı addımlar atması təklif edilib. Vyetnamın təmsilçisi çıxışı zamanı bildirib ki, bu mövzuda təhdidlərin yaranmaması üçün komitə ilə razılıq əldə olunub. Üzv ölkələr Vyetnamın qabaqlayıcı tədbir görməsini müsbət qiymətləndirib və təklifləri dinlənildikdən sonra müvafiq qərar qəbul olunub.

Asiya-Sakit okean regionunda yerləşən mədəni mirasın real vəziyyətinin müzakirəsi zamanı da Avstraliya, Hindistan, İndoneziya və Yaponiyanın meşə massivlərinin Ümumdünya İrs Komitəsinin siyahısına daxil edilməsi ilə bağlı məsələ müzakirə olunaraq müvafiq qərar qəbul edilib.

Daha sonra Kanadada Meşə Öküzü Milli Parkının dağılmaq üzrə olması haqqında məsələyə baxılıb. Milli park ərazisində yaşayan yerli icmanın nümayəndəsi bu məsələyə xüsusi diqqətin ayrılmasını xahiş etdi.

Bundan başqa, Latın Amerikası və Karib regionunun milli parklarının mühafizəsi məsələləri də müzakirə olunub.

Günün ikinci yarısında işini davam etdirən sessiyada ərəb dövlətləri regionunda qarışıq irslə bağlı hazırlanmış qərar müzakirəsiz qəbul edilib. Sonra Şimali Makedoniyadakı Oxrid gölü və onun ətrafında təbii-mədəni duruma olan təhdidlər geniş müzakirələr doğurub. Bununla bağlı Dünya İrs Komitəsinin hazırladığı hesabat dinlənilib. Hesabatda vurğulanıb ki, urbanizasiyanın və turizmin inkişafı, gölün ətrafındakı monastır-kilsənin yeni tikilən binalar tərəfindən sıxışdırılması həmin ərazinin qorunmasını təhdid edir. Hələ 40-cı, 41-ci sessiyalarda qərar qəbul edilsə də, Oxrid gölü ilə bağlı konservasiya işləri lazımınca aparılmayıb. Çıxış edən ölkələrin nümayəndələri Şimali Makedoniyaya vəziyyəti düzəltmək üçün daha bir müddət vaxt verilməsini təklif ediblər. Vurğulanıb ki, əgər Dünya İrs Komitəsinin tövsiyələri nəzərə alınmazsa, o zaman Oxrid gölü təhlükə ilə üzləşən obyektlər siyahısına daxil ediləcək.

Sessiyada Tanzaniya və Tunisdəki unikal təbii mühitinin və arxeoloji zonanın qorunması da müzakirə edilib.

Maraq doğuran növbəti məsələ Qazaxıstandakı Xoca Əhməd Yasəvinin məqbərəsi ətrafında bufer zonanın vəziyyəti ilə bağlı olub. Qırğızıstan və Azərbaycan nümayəndəlikləri Türküstan şəhərində görülən abadlıq işlərinin abidəyə heç bir zərər verməyəcəyini vurğulayıblar. Qazaxıstan hökumətinin gördüyü işlər müsbət qiymətləndirilib, tikinti işlərinin məqbərədən kənarda aparıldığı təsdiq edilib. Bu abidənin təhlükə siyahısına daxil edilməsinə ehtiyac olmadığı vurğulanıb.

Müzakirə zamanı ICOMOS təmsilçisi tövsiyə etdi ki, Xoca Əhməd Yəsəvi məqbərəsi ətrafında konservasiya zonası genişləndirilsin. Beynəlxalq Memarlar İttifaqının nümayəndəsi Türküstan şəhərinin inkişafı ilə bağlı məqbərəni qorumağın vacibliyini vurğulayıb və sonda təkliflər hazırlanan qərar layihəsində nəzərə alınıb.

Sessiya sabah öz işini davam etdirəcək.

# Azərbaycan ilə İran arasında bir sıra sahələrdə əlaqələr yüksələn xətlə inkişaf edir

İyulun 3-də Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərovun İran İslam Şurası Məclisinin nümayəndə heyəti ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, birinci vitse-spiker Azərbaycanın İranla münasibətlərə böyük önəm verdiyini bildirib. Qeyd edib ki, Azərbaycan və İran dost və qardaş ölkələrdir. Xalqlarımız arasında tarixi, mədəni və dini bağlılıq mövcuddur. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkələrimiz arasında etimadın yüksəlməsində Ümummilli Lider Heydər Əliyevin rolu böyükdür. Azərbaycan və İran prezidentlərinin qarşılıqlı səfərləri, keçirdikləri görüşlər əlaqələrimizin daha da möhkəmlənməsini sübut edir.



Vurğulanıb ki, siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əlaqələrimiz yüksələn xətlə inkişaf edir. Ölkələrimiz arasında imzalanmış sənədlər əlaqələrimizin hüquqi bazasını təşkil edir. Azərbaycan Cənubi Qafqazın ən inkişaf etmiş dövlətidir. Biz qonşu ölkələrlə mehriban münasibətlər qurmağa çalışırıq.

Ziyafət Əsgərov parlamentlərarası əlaqələrdən söz açaraq deputatlarımızın qarşılıqlı səfərlərini, beynəlxalq qurumlarda birgə fəaliyyətini təqdir edib. Bildirilib ki, qanunverici orqanlar arasında əməkdaşlığın genişləndirilməsində hər iki ölkənin parlamentlərindəki dostluq qruplarının fəaliyyəti böyük əhəmiyyət kəsb edir. Milli Məclisin Sədri Oqtay Əsədovun və İran İslam Şurası Məclisinin Sədri Əli Laricaninin rəsmi səfərləri parlament diplomatiyasının bariz nümunəsidir.

Parlament Sədrinin birinci müavini diqqətə çatdırıb ki, bu gün bizi bir problem narahat edir: Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunması. BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər mötəbər beynəlxalq qurumlarda münaqişənin həlli ilə bağlı müvafiq qərarlar qəbul edilib. Lakin Ermənistan bu qərarlara məhəl qoymur. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı İranın ölkəmizin ərazi bütövlüyünü dəstəklədiyinə görə təşəkkürünü ifadə edib.

İran İslam Şurası Məclisinin deputatı Qulamreza Tacgərdun qonaqpərvərliyə görə minnətdarlığını bildirib. O, İran parlamentinin Sədri Əli Laricaninin salamlarını Milli Məclisin Sədri Oqtay Əsədova çatdırıb. İranlı deputat Azərbaycan parlamenti Sədrinin ötən il Tehrana və Urmiyaya səfərini xoş təəssüratlarla yada salıb. Qonaq Azərbaycanın İrana ən yaxın dost ölkə olduğunu vurğulayıb, ölkəmizlə müxtəlif sahələrdə əməkdaşlıqda maraqlı olduqlarını söyləyib.

İranlı deputat əlaqələrin inkişafında parlamentlərin rolunu xüsusi qeyd edərək nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təcrübə və informasiya mübadiləsi baxımından önəmli olduğunu deyib.

Qulamreza Tacgərdun ölkələrimizin iştirak etdiyi "Şimal-Cənub nəqliyyat dəhlizi" layihəsinin vacibliyindən danışıb. Qeyd edib ki, bu və digər müştərək layihələrin həyata keçirilməsində parlament öz öhdəsinə düşən vəzifələri yerinə yetirir.

İran parlamentinin üzvü ölkəsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində daim Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulayıb.

Söhbət zamanı siyasi, iqtisadi, humanitar sahələrdə əməkdaşlığın möhkəmləndirilməsi, parlamentlər səviyyəsində əlaqələrimizin bu günü və inkişaf perspektivləri, regional münaqişələrin həlli yolları və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, İranla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədr müavini Eldar İbrahimov, İranın ölkəmizdəki səfiri Cavad Cahangirzadə və digər rəsmi şəxslər iştirak ediblər.

# Milli Məclisin Mətbuat xidmətinin məlumatı

Son günlər bəzi Kütləvi İnformasiya Vasitələrində Milli Məclisin iyul ayında təcili növbədənkənar sessiyasının çağırılması ilə bağlı yanlış xəbər yayılmışdır.

Bildiririk ki, hər il yaz sessiyası bitdikdən sonra Milli Məclisin qanunverici işlər planında olan və qanunverici təşəbbüsü subyektləri tərəfindən təqdim edilən qanun layihələrinin müzakirəsi üçün yay aylarında növbədənkənar sessiya çağırılır. Həmin növbədənkənar sessiya maksimum iyul ayının 15-dək - Milli Məclisin tətilə çıxdığı müddətədək davam oluna bilər. Bu il də hər il olduğu kimi Milli Məclisin növbədənkənar sessiyası çağırılmışdır. Həmin sessiyanın iclaslarının gündəliyinə daxil olan qanun layihələri üç oxunuşdan keçməlidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi iqtisadi, sosial və digər sahələrdəki islahatların qanunvericilik baxımından təmin edilməsi üçün Milli Məclisin növbədənkənar sessiyasında artıq üç iclas keçirilmişdir. Həmin məsələləri tamamlamaq üçün iyul ayındaki iclaslarda qanun layihələri ikinci və üçüncü oxunuşdan keçiriləcək. Növbədənkənar sessiyanın növbəti iclaslarının iyulun 9-da və 12-də keçirilməsi nəzərdə tutulur. Xüsusi ilə qeyd etmək lazımdır ki, nə Azərbaycan Respublikasının Konstitusiyasında, nə də ki, Milli Məclisin Daxili Nizamnaməsində "təcili" və yaxud "fövqəladə" sessiyaların keçirilməsi nəzərdə tutulmamışdır. Milli Məclis həmişə olduğu kimi normal iş qaydasında fəaliyyət göstərir. Milli Məclisin iyul ayının 15-dək keçiriləcək iclaslarında qeyri-adi bir şey axtarmağın heç bir əsası yoxdur.

Milli Məclisin Mətbuat xidməti bir daha bəzi Kütləvi İnformasiya Vasitələrinə müraciət edir ki, əsası olmayan, yoxlanılmamış məlumatlarla ictimaiyyəti yayındırmasınlar.

# UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində paralel iclaslar təşkil edilib

Bakı Konqres Mərkəzində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası iyulun 3-də paralel iclaslarla işini davam etdirib.

AZƏRTAC xəbər verir ki, "Mədəni irsin təsirinin qiymətləndirilməsinə yenidən baxılması: İstanbul təcrübəsi" mövzusunda paralel iclasda Türkiyədə turizm və infrastrukturun inkişafından söz açılıb. Yeni tikililərin, eləcə də urbanizasiya prosesinin ümumbəşəri dəyərlərə malik tarixi abidələrə mənfi təsiri barədə fikir mübadiləsi aparılıb.

UNESKO-nun Ümumdünya İrs Mərkəzinin direktoru xanım Mitheld Rössler sessiyada təşkil edilən paralel iclasların maddi və mədəni irsin qorunmasına mühüm töhfə verəcəyini vurğulayıb.

Tədbirdə ICOMOS tərəfindən ümumdünya mədəni irs abidələri ilə bağlı hazırlanmış təlimat təqdim edilib və müzakirələr aparılıb.

UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının iştirakçıları cari ilin aprelində Türkiyənin İstanbul şəhərində mədəni irs abidələrinin qiymətləndirilməsinə həsr olunan seminarda irəli sürülən təklifləri Bakı sessiyasında yenidən nəzərdən keçiriblər. Türkiyənin UNESKO-dakı daimi nümayəndəliyinin rəhbəri Əhməd Altay Cengizer plenar iclasda İstanbuldakı qədim tarixi abidələrlə bağlı məlumat verib və ölkəsində tarixi mədəni irsin qorunması istiqamətində görülən işlərdən danışıb.

Növbəti plenar iclas çərçivəsində isə UNESKO-nun Ümumdünya İrs Komitəsinin büdcə məsələləri üzrə işçi qrupunun iclası keçirilib.

İştirakçı dövlətlərin və Mədəni Mülkiyyətin Mühafizəsi və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (ICCROM), Təbiətin Mühafizəsi naminə Beynəlxalq Birliyin (IUCN) və Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (ICOMOS) nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə iştirakçı dövlətlərin mədəni irsin qorunub saxlanılması üzrə Konvensiyada nəzərdə tutulan öhdəlikləri ilə bağlı irəli sürülən yeni təkliflər ətrafında müzakirələr aparılıb.

İclasda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 2018-2019-cu il üzrə büdcə hesabatı dinlənilib və qurumun 2020-2021-ci il üzrə büdcəsi müzakirə olunub.

# Heydər Əliyev Fondu paytaxtdakı uşaq müəssisələrinin sakinlərinə maraqlı və unudulmaz bir gün yaşatdı









İyulun 3-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva fondun valideyn himayəsindən məhrum olmuş və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təşkil etdiyi növbəti əyləncə və istirahət proqramında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondu uşaqları paytaxtın dənizkənarı istirahət məkanlarından birində - “Dalğa Beach” istirahət mərkəzində bir araya topladı. Fondun təşəbbüsü ilə təşkil olunan tədbirə xüsusi avtobuslarla gətirilən uşaqları nağıl qəhrəmanları qarşıladılar. Nizami rayonunun 1, Suraxanı rayonunun 2, Xətai rayonunun 3 saylı uşaq evlərinin, Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin və 11 saylı inteqrasiya təlimli internat məktəbinin sakinləri bu məkanda yay mövsümünün ovqatını hiss etdilər, günəşli günlərin qayğısız anlarını yaşadılar.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da övladı ilə birlikdə bu şənliyə qoşuldu.

Balacalara xas olan hədsiz səmimiyyət və sevinclə əylənən uşaq evlərinin sakinləri və xüsusi qayğıya ehtiyacı olan uşaqlar müxtəlif oyunlarda, attraksionlarda iştirak etdilər, bu isti yay günündə hovuzda üzdülər, onlar üçün hazırlanmış müxtəlif əyləncə proqramları ilə maraqlı asudə vaxt keçirdilər, ətrafdakılarla sevinclərini bölüşdülər.

Heydər Əliyev Fondunun vitse-prezidenti uşaqlarla söhbət etdi, onlar üçün təşkil edilən bu şənliklə bağlı fikirləri ilə maraqlandı, hər biri ilə şəkil çəkdirdi. Uşaq evlərinin, Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin və inteqrasiya təlimli internat məktəbinin sakinləri təəssüratlarını bölüşdülər, burada yeni dostlar qazandıqlarını söylədilər, iştirak etdikləri oyunlar, əyləndikləri attraksionlar barədə danışdılar. Bununla da xeyriyyəçiliyi, böyüməkdə olan nəslin hərtərəfli qayğı ilə əhatə olunmasını fəaliyyətinin prioritet istiqamətləri kimi müəyyən edən Heydər Əliyev Fondu paytaxtdakı uşaq müəssisələrinin sakinləri ilə görüşə növbəti hədiyyəsi ilə gəldi, onlara maraqlı və unudulmaz bir gün yaşatdı.

Fondun vitse-prezidenti Leyla Əliyeva uşaqlarla birgə rəqs etdi.

Hər bir uşağa Heydər Əliyev Fondunun hədiyyələri təqdim olundu. Şənlikdə 200-ə yaxın uşaq iştirak edirdi.





# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın uşaqlara hədiyyəsi









İyulun 3-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Səhiyyə Nazirliyinin Kübra Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunda olub.

AZƏRTAC xəbər verir ki, institutun kollektivi Leyla Əliyevaya bu tibb müəssisəsinə gəldiyinə görə minnətdarlığını bildirdi.

Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru Nəsib Quliyev məlumat verdi ki, institutda 245 çarpayılıq 8 klinik şöbə və bir çox paraklinik bölmələr fəaliyyət göstərir.

Heydər Əliyev Fondunun vitse-prezidenti burada müalicə olunan uşaqlar və onların valideynləri ilə görüşdü, balacalara hədiyyələr təqdim etdi.

Azərbaycanda ilk yaradılan şəfa ocaqlarından biri olan bu tibb müəssisəsi bir əsrə yaxın vaxt ərzində ana və uşaqların sağlamlığının qorunması kimi mühüm və nəcib işə xidmət edir. Bu institutda həkim-mütəxəssislər və həkim-rezidentlər üçün mühazirələr də təşkil olunur, burada təcrübə keçən həkim-rezidentlər ayda bir dəfə pediatriyanın müxtəlif mövzularında təqdimatlarla çıxış edirlər. İnstitutda respublikanın tibb müəssisələri üçün yüksəkixtisaslı mütəxəssislər və elmi işçilər hazırlanır. Yeni doğulanların 50 çarpayılıq reanimasiya və intensiv terapiya şöbəsi respublika üzrə reanimatoloji-neonatoloji mərkəz funksiyasını yerinə yetirir. Bu tibb müəssisəsi 1925-ci ildə 200 çarpayılıq uşaq xəstəxanasının bazasında təşkil olunub, 1927-ci ildə isə yenidən qurularaq Ana və Uşaqları Mühafizə İnstitutuna çevrilib. İnstitutda bir çox illər ərzində pediatriya elminə və elmi kadrların hazırlanmasına böyük töhfə vermiş görkəmli alimlər çalışıb. Bu tibb müəssisəsi dünyanın aparıcı pediatrik səhiyyə müəssisələri ilə sıx əməkdaşlıq və təcrübə mübadiləsi aparır. Son illər ərzində hər il institutun bölmələrində 30 mindən çox uşağa tibbi xidmət göstərilib.

Heydər Əliyev Fondu respublikada ana və uşaqların sağlamlığının mühafizəsinə xüsusi diqqət yetirir. İndiyədək fondun dəstəyi və təşəbbüsü ilə çox sayda ambulator-poliklinika və stasionar tibb müəssisələri təmir və bərpa olunub, müasir avadanlıqlarla təchiz edilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva kollektivə uğurlar arzuladı, burada müalicə olunanlara şəfa dilədi.

# Heydər Əliyev Fondu valideyn himayəsindən məhrum olan uşaqların hərtərəfli inkişafı üçün mühüm layihələrə imza atır





Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iyulun 3-də Bakıdakı 1 nömrəli körpələr evinin sakinləri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Leyla Əliyevaya körpələr evi haqqında məlumat verildi. Bildirildi ki, hazırda burada 3 yaşadək 16 uşaq var.

Leyla Əliyeva körpələr evinin sakinləri ilə görüşdü.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və fondun vitse-prezidenti Leyla Əliyeva bu uşaq müəssisəsinin fəaliyyətini daim diqqətdə saxlayır, buradakı balacalara xüsusi qayğı ilə yanaşır, mütəmadi olaraq körpələr evini ziyarət edirlər. Heydər Əliyev Fondu valideyn himayəsindən məhrum olan uşaqların fiziki və mənəvi cəhətdən sağlam, dünyagörüşlü, bilikli, savadlı yetişməsi üçün mühüm layihələrə imza atıb. Fondun fəaliyyətində yeni körpələr evi, uşaq bağçalarının inşası, mövcud olanların isə yenidən qurulması əsas yerlərdən birini tutur. Bütün bunlar sübut edir ki, fond gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin ən yüksək səviyyədə təşkili istiqamətində Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətə mühüm töhfələr verir.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva “Live Life” sərgisində yay təcrübəsi keçən tələbələrlə görüşüb

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva iyulun 3-də Heydər Əliyev Mərkəzində “Live Life” sərgisində olub və bu beynəlxalq sərgi layihəsi çərçivəsində yay təcrübəsi keçən tələbələrlə görüşüb.

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva gənc rəssamların sərgidə nümayiş etdirilən əl işləri ilə tanış oldu.

Sərgi ilə tanışlıqdan sonra yay təcrübəsi məktəbinin iştirakçıları ilə xatirə şəkli çəkdirildi.

Qeyd edək ki, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının fərqlənmiş 30 tələbəsi “Live Life” sərgisi çərçivəsində iyulun 2-dən Heydər Əliyev Mərkəzində yay təcrübəsi keçir.

İyulun 6-dək davam edəcək yay təcrübəsinin mövzusu “Live Life” sərgisinin ideyası ilə səsləşir və ətraf mühitin problemlərinə, təbiətin qorunmasına, incəsənətin bu sahədə roluna dair ictimaiyyətin maarifləndirilməsinə diqqətin cəlb edilməsini nəzərdə tutur.

Layihədə iştirak edən tələbələr yaradıcılıq üçün zəruri baza dəstləri ilə təmin olunublar. İştirakçılardan hər biri həvəsləndirici mükafat alacaq. Layihənin sonunda isə onların arasından üç qalib seçiləcək və mükafatlandırılacaq.











Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə təşkil olunmuş “Live Life” sərgisi London, Paris, Berlin, Moskva və Tbilisidə nümayişdən sonra Bakıya gətirilib və 2018-ci il sentyabrın 28-dən Heydər Əliyev Mərkəzində təqdim edilir. Ekspozisiyada 200-dən çox əsər yer alıb.

# Əlil sahibkarlar iqtisadiyyatda daha fəal olmaq istəyirlər

Sumqayıt şəhərində "Əlil Sahibkarlar Təşkilatı" İctimai Birliyi ilə BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri prinsiplərinə uyğun sahibkarlıq fəaliyyətinin təşviq edilməsi və əlilliyi olan şəxslər arasında işsizlik probleminin həllinə dair bu təbəqədən olan sahibkarlarla Milli Məclisin deputatı Tahir Mirkişili görüş keçirmişdir.



Görüşdə ölkəmizdə dövlət başçısının əlilliyi olan şəxslərə qayğısından, Birinci vitse-prezident Mehriban Əliyevanın, Heydər Əliyev Fondunun əlilliyi olan şəxslərin həyatlarının yaxşılaşdırılması yönümündə gördüyü tədbirlərdən, əlilliyi olan şəxslər üçün dövlət dəstəyinin daim gücləndirilməsindən, onların sosial müdafiəsi istiqamətində atılan addımlardan danışan Tahir Mirkişili sahibkarlıq, özünüməşğulluq sahəsində əlilliyi olan şəxslərin iqtisadiyyata daha çox inteqrasiyasına ehtiyac olduğunu vurğulamışdır. Bunun üçün dövlət orqanları ilə yanaşı, əlilliyi olan şəxslərin özlərinin və sahibkarlıq subyektlərinin də aktiv olmalarının, təşəbbüs göstərmələrinin vacibliyini və bu məqsədlə peşə ixtisaslarını artırmaq üçün lazımi şəraitin olduğunu da vurğulamışdır.

Müzakirələrə qatılan əlil sahibkarlar həyata keçirdikləri layihələrdən bəhs edərək onların yaradıcı işlərdə böyük potensiallarının olduğunu qeyd etmişlər. Hazırda uğurlu layihələr həyata keçirən əlilliyi olan sahibkarlar öz fəaliyyətlərini genişləndirmək üçün yeni avadanlıqlara və binalara ehtiyacları olduqlarını bildirmişlər.

Əlilliyi olan sahibkarların təklif və istəklərinin müzakirə olunacağını qeyd edən Tahir Mirkişili bu istiqamətdə dövlət orqanlarının həyata keçirəcəyi layihələrdən bəhs edərək özəl sahibkarlıq subyektləri ilə də görüşlər keçiriləcəyini bildirmişdir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanın Xarici İşlər naziri Peruya işgüzar səfərə yola düşüb

Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyəti Peru Respublikasının Xarici İşlər naziri Nestor Popolizio Bordalesin dəvəti ilə Lima şəhərinə səfərə yola düşüb. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Nazir Elmar Məmmədyarov iyulun 5-6-da Limada keçiriləcək "Sakit okean Alyansı"na üzv ölkələrin (Meksika, Kolumbiya, Peru və Çili) prezidentlərinin və müşahidəçi ölkələrin rəsmilərinin 14-cü Zirvə görüşündə iştirak edəcək.

Zirvə görüşü çərçivəsində təşkilatın müşahidəçi ölkələri üçün işçi masanın təşkil olunması və üzv ölkələrlə müşahidəçi statusuna malik ölkələr arasında nəqliyyat, innovasiya və yüksək texnologiyalar, mədəniyyət, turizm, təhsil, tibb, ətraf mühit və digər sahələr üzrə əməkdaşlıq imkanlarının ikitərəfli və çoxtərəfli əsasda inkişafı, eləcə də ticarət əlaqələrinin gücləndirilməsi imkanlarının müzakirə edilməsi nəzərdə tutulur.

Sakit okean Alyansının Zirvə görüşündə müşahidəçi ölkələrlə yanaşı, Asiya-Sakit Okean İqtisadi Əməkdaşlığı, Avropa İttifaqı, ATƏT və Avrasiya İqtisadi Əməkdaşlıq Təşkilatı kimi nüfuzlu təşkilatların nümayəndələrinin iştirak edəcəkləri gözlənilir.

# Leyla Əliyevanın xeyirxah təşəbbüsünün daha bir nümunəsi

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində növbəti həyətin açılış mərasimi keçirilib.









"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Yenilənmiş həyət Binəqədi rayonu, İsrafil Həşimov küçəsi, 8 ünvanında 2000 nəfər sakinin yaşadığı binaları əhatə edir. Abadlaşdırılan növbəti həyətdə də əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınmışdır. Bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarının səmərəli keçirmələri məqsədilə ərazidə 1 ədəd mini futbol meydançası, şahmat meydançası, 4 ədəd idman qurğusu, uşaqlar üçün oyun meydançası və 16 ədəd oturacaq quraşdırılmışdır. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmləndirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılmış, binaların fasadları və giriş hissələri tam təmir olunmuşdur. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 50 ədəd ağac əkilib və 1735 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Binəqədi rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan iyirmi beşinci həyətdir. Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın bu nəcib təşəbbüsü ilə paytaxt rayonlarında təmir olunub istifadəyə verilən həyət və məhəllələr sakinlər tərəfindən çox böyük rəğbətlə qarşılanır, onların hədsiz sevincinə səbəb olur. Ölkəmizdə və onun sərhədlərindən kənarda xeyriyyəçilik, təhsil, səhiyyə və digər sahələrdə böyük işlər həyata keçirən Leyla Əliyeva öz ictimai-siyasi fəaliyyəti ilə gənclərə ən mükəmməl örnəkdir.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Nigeriyalı gənclər Azərbaycanda təhsil alacaqlar

Nigeriyalı 7 gənc 2019-2023-cü tədris illəri müddətində Bakı Ali Neft Məktəbində (BANM) neft-qaz mühəndisliyi ixtisası üzrə bakalavr təhsili alacaq. Tələbələrin təhsili "Nigeriyanın neft və qaz sənayesində kadr potensialının gücləndirilməsi" layihəsi çərçivəsində BMT-nin ayırdığı təqaüdlər hesabına həyata keçirilir.

Bu haqda BANM-in rektoru Elmar Qasımovun BMT-nin Təlim və Tədqiqat İnstitutunun icraçı direktoru, BMT Baş katibinin müavini Nixil Set və Azərbaycanın Cenevrədəki BMT bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi, səfir Vaqif Sadıqov ilə görüşü zamanı müzakirə olunmuşdur.

Məlumat üçün bildirək ki, nigeriyalı tələbələrin təhsili BANM-in BMT-nin Təlim və Tədqiqat İnstitutu (UNİTAR) ilə imzaladığı memorandum əsasında həyata keçirilir. Memorandumun əsas məqsədi Nigeriyadan tələbələrin Azərbaycanda "Neft-qaz mühəndisliyi" ixtisası üzrə təhsil alması və Nigeriyanın neft sektoru üçün yararlı mütəxəssis kimi yetişdirilməsini təmin etməkdən ibarətdir. Anlaşma memorandumunun şərtlərinə əsasən, BANM və UNITAR arasında eyni zamanda görüşlərin və seminarların təşkil olunması, birgə layihələrin reallaşdırılması, qarşılıqlı maraq dairəsində olan sahələrin birgə öyrənilməsi, mütəxəssislərin təmin olunması və hər iki tərəfin razılığı ilə nəzərdə tutulmuş digər fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulur.

## Zəlzələ bölgəsindən reportaj





# Prezidentin tapşırığı uğurla icra olunur

### Şamaxı, İsmayıllı və Ağsuda təbii fəlakət nəticəsində evləri qəzalı vəziyyətə düşmüş sakinlər yeni mənzillərlə təmin edilirlər





*Əvvəli 1-ci səh.*

Elə həmin gün dövlət başçısı baş vermiş zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında evlərə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Fövqəladə Hallar Nazirliyinə ilkin olaraq iki milyon manat ayrılması haqqında sərəncam imzaladı. Hadisədən cəmi bir ay sonra dağılmış evlərin bir qisminin yerində artıq yeniləri inşa olundu.

Martın 7-də Şamaxıya səfər edən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni inşa edilmiş evlərlə tanış oldular, sakinlərlə söhbət etdilər. Dövlət başçısı Ağsu rayonunda da görülən işlərlə yerində tanış oldu. Həmin gün Şamaxı, İsmayıllı və Ağsu rayonlarında yaşayış evlərinə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması işlərinin davam etdirilməsi üçün Prezidentin Ehtiyat Fondundan daha 11 milyon manat vəsait ayrıldı.

Xatırladaq ki, zəlzələdən sonra Şamaxı rayonu üzrə 5985, Ağsu rayonu üzrə 2880, İsmayıllı rayonu üzrə isə 1272 müraciət qeydə alınıb. Bütün müraciətlər Fövqəladə Hallar Nazirliyinin mütəxəssisləri tərəfindən diqqətlə öyrənilib. Araşdırmalar nəticəsində müəyyən olunub ki, müraciət edən vətəndaşlardan bir qisminin evində bərpa gücləndirmə işlərinə, bir qisminin evində isə təmir işlərinə ehtiyac var. Bir qisim ev isə kəskin qəzalı hesab edilib və onların sökülərək yerində yeni evlərin tikintisi qərara alınıb.

Bu günlərdə Şamaxı rayonuna səfərimiz zamanı görülən işlərlə yerindəcə tanış olduq. Fövqəladə Hallar Nazirliyinin zəlzələ bölgəsi üzrə qərargahının rəisi Həsən Qasımzadənin sözlərinə görə, təbii fəlakət baş verəndən indiyədək Şamaxı, İsmayıllı və Ağsu rayonları üzrə vətəndaşların müraciətləri əsasında ümumilikdə 381 fərdi evin inşasına başlanılıb. Onlardan 120-də işlər başa çatıb və sakinlərin bir hissəsi artıq yeni evlərdə yaşayır. 112 evdə isə tamamlama işləri aparılır. Digər evlərdə tikinti işləri davam edir.

Zəlzələ nəticəsində daha çox Şamaxı ərazisindəki evlərə ziyan dəyib. Belə ki, rayon üzrə 5985 müraciət qeydə alınıb. Baxış keçirilən evlərin 2699-u şəhərdə, 448-i qəsəbədə, 2827-si isə kəndlərdədir. Müəyyən edilib ki, evlərdən 358-i kəskin qəzalı vəziyyətdədir. Bundan başqa, 1358 evdə bərpa-gücləndirmə işlərinə ehtiyac var. Evlərin 2360-ı isə təmirə ehtiyacı olanlardır.

Bu barədə danışan Həsən Qasımzadə dedi ki, zəlzələdən sonra kəskin qəzalı vəziyyətdə olan evlərin bir qisminin yerində yeni evlərin inşası məqsədəuyğun sayılmayıb. Çünki mütəxəssislər həmin ərazilərin sürüşməyə meyilli olduğunu müəyyən ediblər. Buna görə həmin ərazilərdə yaşamış ailələr üçün Şamaxı şəhərinin 20 Yanvar və Aşıq Məmmədağa küçələrində çoxmənzilli binalar inşa olunur. 20 Yanvar küçəsində iki bina tikilir. Onlardan biri tikintisi tamamlanmaq üzrə olan ikigirişli, dördmərtəbəli, 44 mənzilli binadır. Təməli Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın martın 7-də Şamaxıya etdikləri səfər zamanı qoyulan bu bina sentyabr ayında sakinlərin ixtiyarına veriləcək.

20 Yanvar küçəsindəki digər, o cümlədən Aşıq Məmmədağa küçəsində inşa olunan kompleksin də payıza qədər istifadəyə verilməsi gözlənilir. Bu binalardan biri 5 mərtəbəli, 1 girişli 20 mənzillidir. Digəri isə 3 binadan ibarət, 5 girişli, 5 mərtəbəli 115 mənzilli yaşayış kompleksidir.

Şamaxıda zəlzələ zamanı evləri qəzalı vəziyyətə düşmüş sakinlər onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını ifadə etdilər. "Zəlzələ nəticəsində evimiz tamamilə qəzalı vəziyyətə düşdü. Həyat yoldaşım vəfat etdiyi üçün yeni ev tikmək çətin olardı. Sağ olsun Prezidentimiz və Mehriban xanım. Onların qayğısı ilə evimizin yerində 4 otaqlı yenisi inşa olunur. Əvvəlkindən də geniş və yaraşıqlıdır. Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarına da minnətdarıq, çünki xüsusi fədakarlıqla çalışırlar. Tezliklə yeni evimizə köçəcəyik", - deyə Sadiqə Məmmədova bildirdi.

Şəhər sakini Vahid Şıxıyev isə dağılmış evinin yerində yenisinin artıq inşa olunduğunu dedi. "Dağılan ev 3 otaq idi. Amma Prezidentin sayəsində yerində dördotaqlı ev tikildi", - deyə o bildirdi.

Şamaxıda bir daha əmin olduq ki, Prezident İlham Əliyevin tapşırıqlarına əsasən zəlzələnin nəticələri sürətlə aradan qaldırılır. Bu sahədə qarşıya qoyulan bütün vəzifələr Fövqəladə Hallar Nazirliyi tərəfindən vaxtında və yüksək keyfiyyətlə icra olunur.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Xalq-iqtidar birliyinin təzahürü

*Əvvəli 1-ci səh.*

Son 15 il ərzində əməkhaqlarının, pensiyaların 10 dəfəyə yaxın artırılması, iqtisadiyyatın 3 dəfə güclənməsi daha çox qazanmağa, daha geniş çərçivədə sosial layihələri həyata keçirməyə imkan verir. Dünya Bankının hesablamalarına görə, biz bu göstərici üzrə dünya miqyasında 25-ci yerdəyik.

İlham Əliyev demişdir: "...islahatlar aparıldı və ölkə qarşısında duran problemlər həll olunmağa başlandı. Əgər biz buraya texnoloji inkişafı əlavə etsək, deyə bilərik ki, bu gün Azərbaycanın 3 peyki var, Azərbaycan kosmik klubun üzvüdür. Bu da böyük nailiyyətdir, tarixi nailiyyətdir. Enerji təhlükəsizliyi sahəsində görün nə qədər böyük işlər görüldü. Heydər Əliyevin öz əlləri ilə təməlini qoyduğu Bakı-Tbilisi-Ceyhan artıq 13 ildir ki, fəaliyyət göstərir və ölkəmizə gəlir gətirir. Bu gəlir xalqın rifah halının yaxşılaşmasına, infrastruktur layihələrinin icrasına yönəldilir".

Lakin bu gün Azərbaycan dövləti görülən işlərlə kifayətlənmir. Əsas məqsəd gələcəyə düzgün baxışın təyin edilməsi, yeni inkişaf yollarının üzə çıxarılmasıdır. Prezident İlham Əliyev vurğulayır ki, dünya dəyişir, yeni çağırışlar meydana çıxır, dünyanın geosiyasi mənzərəsi 10-15 il əvvəlkindən fərqlidir. Azərbaycanın maraqlarının təmin edilməsi və qorunması üçün çevik diplomatik səylər, sürətli gedişlər lazımdır: "Biz bundan sonra da çalışmalıyıq ki, Azərbaycanı mümkün olan risklərdən qoruyaq, necə ki, bu günə qədər qorumuşuq. Bu, asan məsələ deyil. Çünki hər birimiz yaxşı bilirik ki, dünyada gərginlik çoxalır, beynəlxalq hüququn normaları pozulur, bu normalara məhəl qoyulmur və ölkələr arasında gərginlik artmaqdadır. Ona görə bizim əsas məqsədimiz uğurlu xarici siyasətdən istifadə edərək ölkəmiz üçün mövcud olan və gələcək mümkün riskləri azaltmaqdır".

Dövlət başçısı belə hesab edir ki, sabitliyin təminatçısı olan Azərbaycan xalqı dövlətə güc verir və islahatları dərinləşdirməyə yeni imkanlar yaradır. Məhz bu birlik Azərbaycanın uğurlu dayanıqlı inkişafını təmin etmək gücünə qadirdir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Abidə Menecerləri Forumunun iştirakçılarına sertifikatlar təqdim edilib

Bakı Konqres Mərkəzində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində iyulun 3-də Abidə Menecerləri Forumunun bağlanış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə forum çərçivəsində reallaşan tədbirlər, müzakirələr, işçi qrupların birgə fəaliyyətini əks etdirən hesabat diqqətə çatdırılıb.

Forum iştirakçıları tədbirin əhəmiyyəti ilə bağlı fikirlərini və təəssüratlarını bölüşüb, Azərbaycan Hökumətinə dərin minnətdarlıqlarını ifadə ediblər. Vurğulanıb ki, forumun reallaşması təcrübələrin bölüşülməsi ilə yanaşı, Azərbaycanın abidələri və irsi ilə yaxından tanışlıq imkanı baxımından mühüm əhəmiyyət kəsb edir.

Təbiətin Mühafizəsi naminə Beynəlxalq Birliyin (IUCN) direktoru Tim Badman çıxış edərək iyunun 27-də Bakı Konqres Mərkəzində açılışı keçirilən tədbirin təşkilatçılarına - Mədəniyyət Nazirliyi, UNESKO-nun Ümumdünya İrs Mərkəzi, Mədəni Mülkiyyətin Mühafizəsi və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəz (ICCROM), "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinə təşəkkürünü bildirib. Forumda 50-dən çox ölkəni təmsil edən 70-ə yaxın nümayəndənin iştirak etdiyini diqqətə çatdıran direktor hər kəsə tədbirlərdə dolğun çıxışına və hərtərəfli iştiraklarına görə minnətdarlığını bildirib. O, Abidə Menecerləri Forumunda dünyada mədəni irsin qorunması üçün əhəmiyyətli müzakirələrin aparıldığını, birgə layihələr və əməkdaşlıq mövzularının müzakirə edildiyini diqqətə çatdırıb.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi Əsgər Ələkbərov çıxış edərək mədəni irsin qlobal mahiyyətindən bəhs edib, Abidə Menecerləri Forumunun yeni biliklərin əldə edilməsi, əlaqələrin qurulması və təcrübə mübadiləsi baxımından önəmini vurğulayıb.

Forum iştirakçılarının "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, Qobustan Milli Tarix-Bədii Qoruğu və digər tarixi-mədəni məkanlara səfərləri zamanı apardıqları müzakirələr və irsin qorunması ilə bağlı işçi qruplarının təklifləri yüksək dəyərləndirilib. Daha sonra Mədəniyyət Nazirliyinin Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri Vasif Eyvazzadə forum iştirakçılarına sertifikatlar təqdim edib.

İştirakçılar təşkilat komitəsinin üzvlərinə minnətdarlıqlarını bildirib və Bakıda olmalarından məmnunluqlarını ifadə ediblər.

Milli qəhrəmanlarımız

# Sonuncu güllə

Elşad Məmmədhənifə oğlu Yəhyayev Şəkidə doğulub. Orta təhsilini Bakıda - 56 saylı məktəbdə tamamlayıb. Həkim olmaq niyyətində olub, sonra fikrini dəyişib hüquqşünaslığı seçib. Xatirələrində yazır ki, Leninqradda hərbi xidmətini başa vurandan sonra fikrini qəti dəyişib. Qərara alıb ki, hərbçi olsun.



Elə bu məqsədlə də Saratov Ali Komandirlik Məktəbinə daxil olub. Etiraf edir ki, doğrusu, bu məktəbdə çox şeylər öyrəndim. Təcrübəli hərbçilərin, komandirlərin tövsiyələrindən, məsləhətlərindən faydalandım. Hərbi leytenant kimi Almatıya təyinat aldım. Amma o yerlərdə çox qala bilmədim. Ona görə ki, Azərbaycan düşmən təcavüzü ilə üz-üzə qalmışdı. Ayrı-ayrı bölgələrimizdə ciddi döyüşlər gedirdi. Erməni işğalçıları torpaqlarımıza göz dikmişdi. Öz xahişimlə Azərbaycana qayıtdım. Daxili qoşunlarda bölük komandiri kimi işə başladım. Amma bir yerdə qərar tuta bilmirdim. Ona görə ki, cəbhə bölgələrindən bir-birindən dəhşətli xəbərlər gəlirdi. Düşmən gündən-günə azğınlaşırdı.

1992-ci ildə yenidən öz xahişimlə müharibənin ən qaynar nöqtələrindən birinə göndərilməyimi xahiş etdim. Onda Ağdərə istiqamətində gərgin döyüşlər gedirdi. İtkilərin sayı azalmırdı. Elə bir vaxt idi ki, düşmən heç nəyə məhəl qoymurdu. Qocalar, xəstələr, lap balaca uşaqlar belə əsir götürülürdü. Biz eşidəndə ki, nə qədər qadınlar, qızlar düşmən əhatəsində qalıb, bir yerdə qərar tuta bilmirdik. İşğal olunmuş kəndləri geri qaytarmaq üçün bütün imkanlarımızı səfərbər edirdik. Qalayçılar kəndi düşmən əhatəsində olanda biz qeyri-bərabər qüvvə ilə üz-üzə qaldıq. Amma axıra qədər döyüşdük. Kəndi düşmən əhatəsindən xilas etmək üçün bütün qüvvəmizdən qədərincə faydalandıq. Hətta geriyə qayıtmaq üçün əmr alsaq da, kəndi düşmən əhatəsində qoymadıq. Heç olmasa günahsız adamları təhlükəsiz yerlərə köçürdük. Elə mənim çətin döyüş yolum da bu kənddən başladı...

Elşad Yəhyayev xatirələrində yazır ki, bizim döyüş yolumuz çətin maneələrdən keçirdi. Düşmənin zirehli texnikası, canlı qüvvəsi çox idi. Amma bütün bunlar bizdə acizlik yaratmırdı. Əksinə, böyük qüvvə ilə üz-üzə qaldığımızı hər an hiss edirdik. Onu da deyim ki, olan-qalan ağır texnikanı idarə etməyə o qədər də bacarıqlı hərbçilərimiz yox idi. Vəziyyət elə yaranmışdı ki, yeni gələn qüvvələrə həm texnikanı idarə etməyi öyrədirdik, həm də hücumda taktiki gedişləri. Ona görə də düşmən nə qədər hiyləgər olsa da, hücumların çoxunun qarşısını alırdıq. Doğrudur, itkilərimiz də olurdu. Müharibənin qanunları belə idi. Amma qətiyyətlə deyirəm ki, biz hər dəfə hücuma keçəndə ölməyə yox, öldürməyə gedirdik. Və çox vaxt məqsədimizə çatırdıq...

Döyüş mövqeyimizi tez-tez dəyişməli olurduq. Mənə ən çox kömək edən hərbi texnikanın sirlərini mükəmməl bilməyim olurdu. Bəlkə də ona görə ən ciddi döyüşlərə cəlb olunmaq üçün mənim gücümdən, hərbi bacarığımdan istifadə edirdilər. Belə də olmalı idi. Bir dəfə uğurlu döyüşlərdən sonra məni ongünlük istirahətə buraxmaq istədilər. Qətiyyətlə etiraz etdim. Axı dostlarımı tək qoya bilməzdim. Biz eyni məqsəd uğrunda vuruşurduq. Hər birimiz gücümüzə, qüvvəmizə güvənirdik.

Ən çətin döyüşlərimdən biri Ağdamın Sırxavənd, Qaralar kəndində olub. Onda komandirlik etdiyim bölük az tərkiblə böyük düşmən qüvvəsi ilə üz-üzə qaldı. Amma axıra qədər mübarizəni davam etdirdik. Heç kəs geri çəkilmək istəmirdi. Bilirdik ki, bu döyüş bizim üçün ölüm-dirim mübarizəsidir. Kənd camaatı da bizə yaxından kömək edirdi. Onda imkan daxilində adamları təhlükəsiz ərazilərə köçürürdük. Yaxşı xatırlayıram, heç kəs kəndini-kəsəyini tərk etmək istəmirdi. Adamlar yurdunu-yuvasını asanlıqla düşmənə təslim etmirdi. Ölüm-itim olurdu, amma bu yerlərin adamları doğulub boya-başa çatdıqları yurdu o qədər təəssübkeşliklə sevirdilər ki, bir addım belə geri çəkilmək istəmirdilər. Düşmən də bunu açıq-aşkar hiss edirdi. Onda ermənilər gecə hücumlarına daha çox üstünlük verirdilər. Ciddi təhlükə yaratmaq üçün hər cür məkirli niyyətdən istifadə edirdilər. Biz yaxşı bilirdik ki, belə düşmənlə açıq mübarizədən daha çox gizli kəşfiyyatlara əl atmalıyıq. Bunun üçün də təcrübəli döyüşçülərə, təlim keçmiş hərbçilərə ciddi ehtiyacımız vardı. Belə qüvvələrimiz az olsa da, onlardan qədərincə faydalanırdıq. Məni ən çox sevindirən o idi ki, heç kəs gücünü, qüvvəsini zərrə qədər də əsirgəmirdi. Düşmən ağır zərbələr alırdı, geri çəkilməyə məcbur olurdu...

Elşad son döyüşünü də yaxşı xatırlayır. Yenə də xatirələrində yazırdı ki, ən çox ehtiyat etdiyim düşmənə əsir düşmək idi. Ona görə də bir qayda olaraq sonuncu güllənі özümə saxlayırdım. Özü də tərəddüd etmədən. Ona görə ki, mən qarşı tərəfin nə qədər qəddar, xəyanətkar olduğunu yaxşı bilirdim. Bilirdim ki, belələrinə əsir düşməkdənsə, özünə qıymaq daha sərfəli və ucadır. Ömrü boyu şərəfsiz ölümdən qorunmuşam...

Biz hamımız bir-birimizi aydın anlayırdıq. Cəmi 15 nəfər idik. Bir-birimizə fərq qoymurduq. Həm qoruyurduq, həm də qorunurduq. Onu da deyim ki, düşmənin say çoxluğu bizdə qətiyyən vahimə yaratmırdı. Əksinə, gücümüzü, imkanımızı sona qədər səfərbərliyə alırdıq. Sonuncu döyüşdə düşmən mövqeyini tez-tez dəyişirdi. Amma belə çaşdırıcı manevrlər adi hala çevrilmişdi.

Elşad Yəhyayev ömrünü qəhrəman kimi başa vurdu. Bu gün onun adını əbədiləşdirən yerlər də az deyil. Oxuduğu orta məktəb, yaşadığı küçə onun adını daşıyır. Nəzərimizdən bir şey də yayınmadı. Bu küçədə biz Elşadı hamıdan uca, hündür gördük. Boy-buxununa, cüssəsinə görə yox, cəsarətinə, əməllərinə görə...

***Bəşir ŞƏRİFLİ,***
***"Azərbaycan"***

# UNEC ikili diplom proqramlarının sayını artırdı: *6 proqram reallaşdırılacaq*



UNEC-də 3 yeni ikili diplom proqramının təqdimatı keçirilib. Tədbirdə UNEC-in müvafiq struktur rəhbərləri ilə birlikdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Fransanın Azərbaycandakı səfirliyinin nümayəndələri, təhsil üzrə ekspertlər və digər ali təhsil müəssisələrinin əməkdaşları iştirak ediblər.

Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Nicat Məmmədli Azərbaycan Prezidentinin 2018-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın əhəmiyyətindən danışıb. Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə uyğunlaşdırılmasının və yeni təhsil mühitinin yaradılmasının dövlət proqramının əsas hədəflərindən olduğunu diqqətə çatdırıb. Bu istiqamətdə ölkədə həyata keçirilən tədbirlərdən söz açan nazirlik rəsmisi UNEC-in ikili diplom proqramlarına diqqət çəkib. O, UNEC-in ölkənin ali təhsil müəssisələri arasında ikili diplom proqramlarının sayına görə lider olduğunu vurğulayıb.

Fransanın Azərbaycandakı səfirliyinin mədəniyyət müşaviri və Fransa-Azərbaycan İnstitutunun direktoru Johan Schittererin Fransa dövlətinin ikili diplom proqramları istiqamətində məqsədyönlü strategiyasının olduğunu bildirib. UNEC-in Montpellier Universiteti ilə uğurlu ikili diplom proqramı reallaşdırdığını diqqətə çatdıran səfirlik rəsmisi proqramın əhəmiyyətindən danışıb. O, proqramda iştirak edən UNEC tələbələrinin potensialının çox yüksək olduğunu və ən yaxşı nəticələr göstərdiklərini deyib.

Tədbirdə UNEC-in ABŞ-ın Linkoln Universiteti ilə ikili diplom proqramı reallaşdırması münasibətilə Linkoln Universitetinin rektorunun təbrik videoçarxı nümayiş olunub.

UNEC-in Fransanın iki aparıcı universiteti ilə ikili diplom proqramı reallaşdırdığını bildirən tədris və təlim texnologiyaları üzrə prorektor, dosent Anar Rzayev bu istiqamətdə Fransa səfirliyi tərəfindən UNEC-ə hər zaman dəstək göstərildiyini qeyd edib. A.Rzayev yeni tədris ilindən reallaşdırılacaq 3 yeni ikili diplom proqramı barədə təqdimatla çıxış edib. O, Fransanın Paris şəhərində yerləşən Fransa və ABŞ-ın birgə təhsil müəssisəsi olan ICD Beynəlxalq Biznes Məktəbi ilə bakalavr, ABŞ-ın Linkoln Universiteti və Fransanın Montpellier Universitetil ilə MBA və magistratura pilləsi üzrə ikili diplom proqramlarının şərtlərini açıqlayıb.

Tədbirdə bildirilib ki, UNEC hazırda London Universiteti İqtisadiyyat Məktəbi, Fransanın Montpellier Universiteti, İsveçrənin UBİS Universiteti (Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti) ilə ikili diplom proqramları reallaşdırır. Rusiyanın Moskva Dövlət Humanitar İqtisad Universiteti ilə isə ikili diplom proqramı artıq yekun mərhələsindədir. Ötən il Montpellier Universitetindən UNEC-in 5 tələbəsi, bu il isə 13 tələbəsi məzun olub. Magistr pilləsi üzrə İsveçrənin UBİS Universitetindən məzun olan UNEC-in 4 magistrinə diplomlar təqdim olunub.

Tədbirdə iştirakçıların sualları cavablandırılıb.

***"Azərbaycan"***

# TAP konsorsiumu bazar sınaqlarına başlayıb

TAP konsorsiumu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına başlayıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır.

Konsorsiumun icraçı direktoru Luca Schieppati deyib: "TAP-la 2020-ci ildən etibarən ilkin olaraq ildə təxminən 10 milyard kubmetr təbii qaz nəql etmək planlaşdırılır və Avropaya yeni bir qaz mənbəyi gətirilir. Buna baxmayaraq, TAP öz ötürücülük gücünü ildə 20 milyard kubmetrə çatdırmaq imkanına malikdir. Hazırda layihə üzrə işlərin 88 faizdən çoxunun icra olunduğunu nəzərə alaraq boru kəmərinin Avropaya qaz nəqli üçün gələcək tələbata uyğun olaraq genişləndirilməsini təmin etmək niyyətindəyik. Bu, əlavə qaz ehtiyatlarının Avropa bazarına çatdırılması üçün böyük fürsətdir".

TAP Avropa Komissiyasının Ümumi Maraq Layihələrinin (PCI) siyahısına daxil edilib. AZƏRTAC-ın bu barədə yaydığı məlumatda bildirilir ki, layihə qrafikə uyğun davam edir. Hər gün yüzlərlə metr ərazi təmizlənir, borular marşrut xətti boyunca düzülür, qaynaqlanır, xəndəyə endirilir və torpaq örtüyü bərpa edilir. Layihə üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla 88 faizdən çoxu icra olunub.

TAP-ın inşası çərçivəsində Albaniya sularında dəniz borularının tikintisi başa çatıb. Boru kəmərinin dəniz hissəsinin mühəndislik, təchizat, tikinti və quraşdırma (EPCI) üzrə podratçısı İtaliyanın "Saipem" şirkəti bu əməliyyatlar üçün "Castoro 10" gəmisindən istifadə edib. Polad borular sahilə 1,4 kilometr məsafədəki gəmidə qaynaqlanıb. Daha sonra sınaqlar aparılıb və borular dənizin dibinə endirilib. 1,8 kilometrlik ilk borular Fier (Albaniya) yaxınlığında sahilə çıxıb. Uzunluğu 139 metr və eni 36 metr olan "Castoro 10" gəmisi boruları Albaniyanın dayaz sularında döşəyib, bunun ardından fiber-optik kabelin çəkilişi həyata keçirilib.

Ötən ilin oktyabrında boru kəmərinin dəniz hissəsinin tikintisi işlərinə başlanılmışdır. Boru kəmərinin dəniz hissəsi Albaniya və İtaliya sahillərini bir-birinə birləşdirəcək və uzunluğu 105 kilometr olacaq. Adriatik dənizində boruların 37 kilometri Albaniya, 25 kilometri İtaliya, 43 kilometri isə beynəlxalq sularda döşənəcək. Boru kəməri dənizin 810 metrdən də çox dərinlikdəki hissəsindən keçəcək, 36 düymlük xəttin inşasında təxminən 9 min borudan istifadə olunacaq. "Saipem" dənizdəki tikinti işləri üçün təqribən 10 gəmidən istifadə edəcək. Boru kəmərinin Adriatik dənizindən keçəcək hissəsində ümumi tikinti işlərinin 20 faizdən çoxu icra olunub.

Boru kəmərinin Yunanıstandan keçən 550 kilometrlik hissəsində ərazi tamamilə təmizlənib və qiymətləndirilib. Bu ölkədə boruların 547 kilometri qaynaq edilib. 535 kilometr boru torpağa basdırılıb. Boru kəmərinin Albaniyadan keçən 215 kilometrlik hissəsində də ərazi təmizlənib və qiymətləndirilib. Boruların 214 kilometri qaynaqlanıb və 177 kilometr ərazi tamamilə əvvəlki vəziyyətinə gətirilib. TAP-ın Yunanıstan və Albaniya marşrutunda boruların 98 faizi torpağa basdırılıb.

TAP-ın ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Kipoidə (Yunanıstan), digəri Fierdə (Albaniya) olmaqla ümumilikdə 2 kompressor stansiyasının inşasına 2017-ci ilin birinci yarısında başlanılıb və işlər qrafik üzrə davam edir. Kompressor stansiyaları ilə yanaşı, həmçinin Albaniyanın şərqində Bilisht regionunun yaxınlığında ölçmə stansiyasının tikintisi aparılır. Kompressor və ölçmə stansiyalarının tikintisinin 85 faizdən çoxu tamamlanıb. Kipoidə boruların tədarükü tamamlanıb və boruların 90 faizdən çoxu qurulub. Suyun dayanıqlılıq sınaqları isə qrafik üzrə irəliləyir. Kompressor və ölçmə stansiyalarının tikintisi təxminən 2 il müddətində başa çatdırılacaq. Bundan sonra isə ilkin istismara hazırlıq və tam istismara verilmə üzrə yoxlamalar keçiriləcək. Təxminən 6 ay müddətində aparılacaq bu əhatəli yoxlamalar yeni qurğuların tam işlək, eləcə də təbii qazın nəqli üçün təhlükəsiz və hazır olub-olmadığını göstərəcək. Lazımi turbo kompressorlar isə "Siemens" şirkəti tərəfindən istehsal edilib.

İtaliyada mikrotunelin tikintisi üzrə hazırlıq işləri davam etməkdədir. Hazırda boru kəmərinin qəbulu terminalında, mikrotunel sahəsində və dənizə çıxış hissəsində işlər görülür.

***"Azərbaycan"***

# Ermənistanda daxili qarşıdurma daha gərgin mərhələyə keçir

## İşğalçı ölkədə insan haqları kobud şəkildə pozulur, günahsız insanlar həbs olunurlar

Bu gün dünyada ən aktual məsələlərdən biri də insanların hüquq və azadlıqlarının etibarlı müdafiəsidir. Müxtəlif dövlətlərdə bu sahədə vəziyyət bir-birindən kəskin surətdə fərqlənir. Elə ölkələr var ki, orada insan hüquqları ilə bağlı durum getdikcə daha acınacaqlı xarakter alır. Məsələn, işğalçı Ermənistanda son hakimiyyət dəyişikliyindən sonra bu istiqamətdə dəhşətli bir vəziyyət hökm sürür.



İnqilabdan sonra Ermənistanda nəinki demokratiyadan, hətta qanunun aliliyindən belə bəhs etmək üçün səbəb yoxdur. Amma buna rəğmən, Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyanın BMT-nin insan hüquqları şurasında çıxış edərək işğalçı ölkədə baş verən hadisələri demokratik keçid adlandırmağa cəhd göstərir. Halbuki artıq birmənalı həqiqətdir ki, BMT-nin insan hüquqları şurasının kuluarlarında Nikol Paşinyanın hakimiyyətə gəlməsindən sonra Ermənistanda baş verən hadisələr istehzalı şəkildə yakobin və ya bolşevik sayağı "inqilabi diktatura" adlandırılır.

### "İnqilabi diktatura" rejimi quran bir ölkənin BMT-nin insan hüquqları şurasına seçilməsi qəbuledilməzdir

Digər tərəfdən nəzərə almaq lazımdır ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində ərazilərimizin 20 faizindən çoxu işğal edilib. Bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb, qadınlar, uşaqlar, qocalar dəhşətli zorakılıqla qətlə yetirilib, minlərlə insan əsir və girov götürülüb, tarixdə analoqu olmayan Xocalı soyqırımı törədilib. Azərbaycan dövlətinin ərazisində "Dağlıq Qarabağ Respublikası" adlı qondarma bir qurum yaradılıb.

Bu mənada işğal olunmuş ərazilərdə azərbaycanlılara qarşı qanlı etnik təmizləmə törətmiş bir ölkənin BMT-nin insan hüquqları şurasında insan hüquqları və demokratiyadan danışması bu təşkilatın özünün təməl prinsiplərinə ziddir. Azərbaycanın haqlı tələblərinə, təcavüzkarlıq faktını dünyanın qətiyyətlə pisləməsinə baxmayaraq, Ermənistan işğalçılıq siyasətini davam etdirir. Bu işğalın nəticəsi olaraq, Azərbaycan dövlətinin ərazi bütövlüyü kobud şəkildə pozularaq Dağlıq Qarabağın və ətraf rayonların əhalisinin yaşamaq hüququ əlindən alınıb.

Buna baxmayaraq cari ilin payızında Ermənistan BMT-nin insan hüquqları şurasına seçilməyə çalışır. Amma qanlı etnik təmizləmə törədən, bir milyondan artıq azərbaycanlının fundamental hüquq və azadlıqlarını kobud şəkildə pozan və "inqilabi diktatura" rejimi quran bir ölkənin BMT insan hüquqları şurasına seçilməsinə haqqı çatırmı? Bu, sadəcə qəbuledilməzdir. Qeyd olunan hal BMT-nin təməl prinsiplərinin və dəyərlərinin tapdalanması anlamına gəldiyindən beynəlxalq ictimaiyyət buna imkan verməməlidir.

Beynəlxalq qurumlar Ermənistanda insan haqlarının kobud şəkildə pozulması, günahsız insanların həbs olunması, seçki prosesinin saxtalaşdırılması və digər məsələlər fonunda Yerevanın bu niyyətinin üzərindən birdəfəlik xətt çəkməlidirlər.

### Etiraz aksiyaları səngimək bilmir

Ermənistanda mövcud hakimiyyətlə keçmiş hərbi xunta arasında qarşıdurma getdikcə daha kəskin xarakter almağa başlayır. Belə görünür ki, bu iki qüvvənin ortaq məxrəcə gəlməsi mümkünsüz olacaq və belə vəziyyət ölkədə qarşıdurmanın daha radikal xarakter almasına rəvac verəcək. İndiki durumda isə baş nazir Nikol Paşinyan hüquqi müstəvidə keçmiş hökumətin təmsilçilərini sıradan çıxarmağa çalışır və sabiq prezident Robert Koçaryanın yenidən həbsə atılması bunun daha bir təzahürüdür.

Xatırladaq ki, Ermənistanın Apelyasiya Məhkəməsi Robert Koçaryanın azadlığa buraxılması haqqında qərarı ləğv edib. Apelyasiya Məhkəməsi, həmçinin, Qarabağ separatçılarının liderlərinin Koçaryanın azadlığa çıxması üçün ödədikləri girovun onların özlərinə qaytarılması haqqında da qərar qəbul edib.

Məhkəmə qərarından sonra Koçaryan Ermənistan Milli Təhlükəsizlik Xidmətinin binasında yerləşən "Yerevan-Kentron" cəzaçəkmə müəssisəsinə gedərək təslim olub. Koçaryanın tərəfdarları onun həbsinə etiraz olaraq Milli Təhlükəsizlik Xidmətinin binası önündə davamlı aksiya keçirir. Aksiya iştirakçıları onun azadlığa buraxılmasını tələb edərək, əslində bu addımın hökumətin xalqın diqqətini sosial-iqtisadi problemlərdən yayındırmaq məqsədilə atıldığını bildirirlər. Onlar sonadək mübarizə aparacaqlarını bəyan ediblər.

### "Paşinyanın hədəfi prezident idarə-üsuluna qayıtmaqdır"

Hesab olunur ki, baş verənlər fonunda keçmiş hərbi xunta Nikol Paşinyana qarşı daha aktiv şəkildə hərəkətə keçəcək. Onların əsas niyyəti Robert Koçaryanın həbsi fonunda yaranan gərginliyi daha da artırmaq, Paşinyanın hakimiyyətdə möhkəmlənməsinin qarşısını almaqdır.

"Jamanak" nəşri öz mənbələrinə istinadən yazır ki, Nikol Paşinyan keçmiş iqtidarı əzib prezident olmağı düşünür: "Ermənistan rəhbərliyi Vaqe Qriqoryanın Konstitusiya Məhkəməsinin rəhbəri təyin edilməsindən sonra konstitusiya islahatları keçirmək niyyətindədir. Onların məqsədi prezident idarəüsuluna qayıtmaqdır. Baş nazir Nikol Paşinyan əmindir ki, ciddi rəqabətin olmadığı şəraitdə onu asanlıqla prezident seçəcəklər".

Keçmiş iqtidar başa düşür ki, baş nazirdən sonra Paşinyan prezident postunu tutsa, bu klanın yenidən hakimiyyətə qayıtmaq şansı olmayacaq. Elə bu səbəbdən indidən Robert Koçaryanın ətrafında baş verənlərdən istifadə edib vəziyyəti daha da gərginləşdirməyi və Paşinyanı iqtidardan uzaqlaşdırmağı düşünürlər.

### Keçmiş hərbi xunta daxildə vəziyyəti gərginləşdirir

Eyni zamanda Paşinyanın zəbt edilmiş Azərbaycan ərazilərində separatçı rejimin başına öz adamını gətirmək niyyətinə qarşı da genişmiqyaslı fəaliyyət həyata keçirilir. Deyilənə görə, Paşinyanın separatçı rejimin rəhbərliyi üçün namizədi qondarma qurumun keçmiş "müdafiə naziri", Ermənistanın baş hərbi müfəttişi Movses Hakobyan ola bilər.

Məhz bu fonda məlum olub ki, Ermənistan Baş Prokurorluğu hakim David Qriqoryana Robert Koçaryanın cinayət işinə baxmaqdan könüllü olaraq çəkilməyi təklif edib. Lakin David bu təklifin verilməsi səbəbini açıqlamayıb. Buna rəğmən, bu istiqamətdə göstərişin Paşinyandan gəlməsi ehtimal olunur və görünən budur ki, baş nazir Koçaryanı azadlığa buraxmaq niyyətində deyil.

Ermənistanın "Qraparak" nəşri də yazır ki, belə vəziyyətdə Paşinyana qarşı keçmiş hərbi xunta Rusiyadan yararlanmağa çalışır: "Paşinyanın Rusiya ilə münasibətlərin parlaq olduğunu deməsinə baxmayaraq real siyasət bunun tam əksini sübut edir. Robert Koçaryanla Rusiya səfirinin görüşməsinin ardından Xarici İşlər Nazirliyi səviyyəsində hesabat tələb olunması ətrafında yaranan qalmaqal səngiməmiş erməni-rus münasibətlərində yeni "parıltı" qeydə alınıb. Bu özünü AŞ PA-da Ermənistan nümayəndə heyətinin Rusiya Federasiyasının nümayəndə heyətinin təşkilata qayıtması qərarının səsverməsi zamanı qərarın əleyhinə səs verməsi, yaxud səsvermədə iştirak etməməsi ilə büruzə verib. Avropa Şurası Krım yarımadasının anneksiyasından sonra rusları səsvermə hüququndan və bir sıra digər hüquqlarından məhrum edib. Maraqlıdır ki, Ermənistan nümayəndə heyətinin AŞ PA-da səsvermə hüququ olan 2 müxalifət deputatı Edmon Marukyan və Naira Zöhrabyan qərarın lehinə, nümayəndə heyətinin rəhbəri Rubinyan əleyhinə səs verib, digər nümayəndə Ovhanes İgidyan naməlum səbəbdən səsvermədə iştirak etməyib".

Nəşr qeyd edir ki, bu qərar Rusiya səfirinin Koçaryanla görüş təşəbbüsünə cavab olaraq verilib: "Deyilənlərə görə, əslində Rubinyan səsvermə zamanı səhv etməyib. O, Paşinyan səviyyəsində qəbul edilən qərarı ifadə edib. Bu qərarın Rusiya səfirinin Koçaryanla görüş təşəbbüsünə cavab olaraq verildiyi bildirilir. Əslində, AŞ PA-nın tarixində ilk dəfə Ermənistan hakimiyyət nümayəndəsi Rusiyanın maraqlarına cavab verən təşəbbüsün əleyhinə səs verib".

İndi hesab edilir ki, belə vəziyyətdə keçmiş hərbi xunta Rusiyadan yardım alaraq, ilk növbədə, Ermənistan daxilində vəziyyəti gərginləşdirməyə çalışacaq. Bunun üçün sosial-iqtisadi problemlər, Dağlıq Qarabağ münaqişəsi ətrafında baş verənlər yenidən qabardılır. Bütün bunlar fonunda Ermənistanda qarşıdakı dövr ərzində gərgin vəziyyətin davam edərək yeni qarşıdurma həddinə çatması isə istisna olunmur.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## B İ L D İ R İ Ş

“Azərbaycan qəzeti”nin 05 iyun 2019-cu il tarixli nömrəsində “Azərsu” ASC-nin daxili vəsaiti hesabına polietilen koruge boruların satın alınması məqsədilə dərc edilmiş tenderin tender predmetinin maliyyələşdirilməsi dayandırıldığı üçün davamından imtina edilir.

İddiaçılar “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, 431 47 67/2288, mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

“Azərbaycan İnvestsiya Şirkəti” ASC tərəfindən “1C: Mühasibat” proqram təminatının yenilənməsi xidmətinin satın alınması məqsədilə keçirilmiş kotirovka sorğusu proseduru başa çatmışdır. Tender komissiyasının 03.06.2019-cu il tarixli qərarı ilə fərdi sahibkar Mürsəlov Ayaz Salman oğlu (VÖEN: 1700199412) kotirovka sorğusu prosedurunun qalibi seçilmişdir.

Qalib sahibkarla 03.07.2019-cu il tarixli müqavilə bağlanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

“Azərbaycan İnvestisiya Şirkəti” ASC tərəfindən Neftçala Sənaye Məhəlləsində yerləşən çirkab su təmizləyici qurğusunun bioloji yolla təmizlənməsi üçün dərman vasitələrinin və dozaj pompalarının satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusu proseduru başa çatmışdır. Tender komissiyasının 03.06.2019-cu il tarixli qərarına əsasən “Aqualink” MMC kotirovka sorğusunun qalibi seçilmişdir.

Qalib şirkətlə 03.07.2019-cu il tarixli müqavilə bağlanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC tərəfindən 24 may 2019-cu il tarixdə keçirilən LOT-1 Müxtəlif növ mebel və mebel aksesuarlarının satın alınması üzrə “QARDAŞLAR MEBEL-3” MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə LOT-1 Müxtəlif növ mebel və mebel aksesuarlarının satın alınması üzrə ƏDV daxil 261794.80 (iki yüz altmış bir min yeddi yüz doxsan dörd manat, 80 qəpik) manat məbləğində 02.07.2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

*Təkrar*

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti

## *açıq tender elan edir*

● **LOT 1 -** Avtonəqliyyat və xüsusi texniki vasitələrin təmiri və texniki qulluq xidmətinin satın alınması

● Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu **AZ1122 Moskva pr., ev 187 (əlaqələndirici şəxs: FAİQ SƏRDAR OĞLU MUSTAFAYEV, telefon: 012 344-00-00 (372)) ünvanından ala bilərlər.**

**İştirak haqqı: LOT 1: 500 AZN**
**Müəssisənin adı:**
“Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti
Müəssisənin VÖEN-i: 9900038501

**Bank rekvizitləri:**

**Hesab:** AZ62AZPO91015461200420100166
**VÖEN:** 9900037711
**Bank:** Azərpoçt MMC PF 1 saylı filialı
**Kodu:** 691011
**M/H:** AZ76NABZ01350100000000094944
**SWIFT:** AZPOAZ22

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 15.07.2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 22.07.2019-cu il saat 11:00-a qədər AZ1122 Moskva pr., ev 187 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 22.07.2019-cu il saat 11:00-da AZ1122 Moskva pr., ev 187 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

## Vətəndaşların qəbulu keçirilib

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən dövlət orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirir. Qəbul zamanı vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll istiqamətində tədbirlər görülür.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbul cədvəlinə uyğun olaraq Səhiyyə naziri Oqtay Şirəliyev iyulun 3-də Yardımlı Rayon Mərkəzi Xəstəxanasında Masallı və Yardımlı rayonlarının sakinlərini qəbul edib.

Qəbul zamanı vətəndaşların sağlamlıq problemləri, işlə təminat və s. məsələlərlə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətində qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb, onların bəziləri yerində həllini tapıb.

Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər aidiyyəti üzrə çatdırılması üçün qeydiyyata alınaraq nəzarətə götürülüb.

Azercell

## abunəçilərinin nəzərinə

“Azercell Telekom” MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 05.07.2019-cu il tarixdə, gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bütün xidmətlərin tam normal əsaslarla fəaliyyət göstərilməsi imkanı təmin ediləcəkdir.

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

# Beynəlxalq aləm

## İyun ayında 166 PKK terrorçusu məhv edilib

İyun ayında Türkiyədə keçirilmiş daxili təhlükəsizliyin təmini üzrə əməliyyatlarda PKK terrorçu təşkilatının 166 üzvü məhv edilmişdir. Bu barədə TRT telekanalı xəbər verir.

Türkiyə Daxili İşlər Nazirliyinin mətbuat katibi İsmayıl Çataklı bildirmişdir ki, bu ilin ilk 6 ayı ərzində əks-terror əməliyyatlarında 649 terrorçu zərərsizləşdirilmişdir. Onların 94-ü PKK-nın, 67-si İŞİD-in, 5-i solçu radikal terrorçu təşkilatın üzvü olmuşdur.

Çataklının dediyinə görə, ötən ay keçirilmiş əməliyyatlar nəticəsində 38 sığınacaq məhv edilmiş, 115 silah ələ keçirilmişdir. Altı ay ərzində isə terrorçuların 773 sığınacağı dağıdılmış, 711 silah və döyüş sursatı müsadirə olunmuşdur.

## Trablis yaxınlığında bombardman zamanı onlarca qaçqın həlak olub

Liviyanın paytaxtı Trablis yaxınlığında yerləşən qaçqın düşərgəsinə endirilmiş aviasiya zərbəsi nəticəsində azı 44 nəfər həlak olmuş, 130-dan çox adam yaralanmışdır. Bu barədə BMT-nin Liviyadakı missiyası məlumat vermişdir. Bildirilir ki, zərbəyə məruz qalmış qaçqın düşərgəsi Tacura rayonundakı hərbi bazalardan birinin yaxınlığında yerləşir.

Beynəlxalq birliyin tanıdığı Liviya hökuməti bu hadisəyə görə məsuliyyəti qondarma “Liviya Milli Ordusunun” başçısı general Xəlifə Həftərin üzərinə qoymuşdur.

Həlak olanların əksəriyyəti Avropaya getmək istəyən afrikalı miqrantlardır. Liviya hökumətinin nəzarətində olan bu cür düşərgələrdə minlərlə qaçqın yerləşdirilmişdir.

Xatırladaq ki, 75 yaşlı general Xəlifə Həftər 1969-cu ildə monarxiya devrildikdən sonra hakimiyyətə gəlib 2011-ci ildə qətlə yetirilən Müəmmər Qəzzafinin sabiq silahdaşıdır. Lakin Həftər 1990-cı illərdən Qəzzafinin ən nüfuzlu əleyhdarlarından biri olmuşdur.

## İsraildə 110-dan çox polis xəsarət alıb

Efiopiya icmasının nümayəndələri ilə toqquşmalar zamanı 110-dan çox israilli polis xəsarət almışdır. 130-dan çox etirazçı saxlanmışdır. Bu barədə hüquq mühafizə orqanlarının mətbuat katibi Miki Rozenfeldə istinadən “RİA Novosti” agentliyi xəbər verir.

Məlumata görə, afroisraillilər bu yaxınlarda polislə münaqişədə soydaşları həlak olduqlarına görə etiraz aksiyaları keçiriblər. Ölkənin ən iri avtomobil yollarını bağlayan nümayişçilər hüquq mühafizə orqanları əməkdaşlarına daş atmış, təkərlərə od vurmuş və onları dağıtmağa cəhd edən avtomobilçilərə hücum etmişlər.

Rozenfeldin dediyinə görə, bütün ölkə ərazisində baş vermiş toqquşmalarda nümayişçilər 111 polis əməkdaşını yaralamışlar. Polis zabitlərə hücum edən və maşınlara od vuran 136 şübhəli şəxsi saxlamışdır.



## Alimlər son üç ildə 84 naməlum pulsar aşkar ediblər

Çinin cənub-qərbindəki Quyçjou əyalətindəki apertura ilə işləyən 500 metrlik FAST sferik radioteleskopunda çalışan alimlər onun 2016-cı ildə quraşdırılmasının başa çatmasından ötən üç il ərzində 84 naməlum pulsar (elektromaqnitik radiasiya şüası yayan yüksək maqnitləşmiş böyük sürətlə dönən neytron ulduzu) aşkar ediblər. Sinxua agentliyinin xəbərinə görə, bu məlumatı FAST-ın baş mühəndisi Tszyan Pen verib.

TASS informasiya agentliyi xəbər verir ki, pulsarların şüaları Yer kürəsinə fasilə ilə çatır. Onların müşahidəsi isə qravitasiya şüalanmasının, “qara dəliklər”in və kosmosdakı digər obyektlərin mövcudluğunu təsdiq etmək üçün istifadə olunur. Bu parlaq şüalar yalnız Çində olan 500 metrlik apertura ilə dolu və böyük diametrli FAST radioteleskopu ilə aydın görünür. FAST-ın baş mühəndisi Tszyan Penin sözlərinə görə, onun fəaliyyəti kainatın təkamülünü daha yaxşı öyrənməyə də imkan verir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov və komitənin üzvləri Eldar Quliyev, Tahir Süleymanov, Mahir Aslanov, Novruzəli Aslanov, İqbal Məmmədov, Hüseynbala Mirələmov, Elçin Quliyev, Eldəniz Səlimov, Cavanşir Paşazadə, Aydın Hüseynov və Milli Məclis Aparatının əməkdaşları Zahid Abbasov, İsa Hüseynov və Məhəmməd Gülməmmədov Milli Məclisin İqtisadi qanunvericilik şöbəsinin müdir müavini Vilayət Əlizadəyə əzizi

**ELXAN MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı, “Azəraqrartikinti” Səhmdar Cəmiyyəti Müşahidə Şurasının sədri Ağalar Vəliyev və səhmdar cəmiyyətin kollektivi Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyevə anası

**ZİNYƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdirinin müavini Şadət Nağıyev Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin aparat rəhbəri Hidayət Abdullayevə atası

**KAVİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Kənd Təsərrüfatı Nazirliyinin kollektivi nazir müavini İlham Quliyevə anası

**ZİNYƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova qayınatası

**KAMİL MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi Azərbaycan Respublikası Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyevə anası

**ZİNYƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıtdan Zakir Fərəcov Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova qayınatası

**KAMİL MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Aqrarkredit” Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova qayınatası

**KAMİL MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinin kollektivi Biləsuvar Rayon Qeydiyyat şöbəsinin rəisi Xanverdi Həsənova qardaşı

**NURULLA HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi “Azərbaycan İnvestiya Şirkəti” ASC-nin icraçı direktoru Allahverdi Paşayevə əzizi

**ƏBÜLFƏT BAXŞƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin aparat rəhbəri Hidayət Abdullayevə atası

**KAVİZ ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi “Azərbaycan İnvestiya Şirkəti” ASC-nin icraçı direktoru Allahverdi Paşayevə əzizi

**ƏBÜLFƏT BAXŞƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Səxavət Kərimov, Bəxtiyar Əzizli, Vüqar Ağalarov və Kamran Əhmədov Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin aparat rəhbəri Hidayət Abdullayevə atası

**KAVİZ ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər .

---

“Azercell Telekom” MMC-nin kollektivi şirkətin Təchizat Zəncirinin idarəedilməsi departamentinin direktoru Pərvanə Piriyevaya əzizi

**AZƏR SULTANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova qayınatası

**KAMİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan İnzibati-İqtisadi Məhkəməsinin sədri Mehman Nuriyev Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşova atası

**AZAY QARAŞOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova qayınatası

**KAMİL MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadəyə əzizi

**ŞÜKUFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi “Azərbaycan İnvestiya Şirkəti” ASC-nin icraçı direktoru Allahverdi Paşayevə əzizi

**ƏBÜLFƏT BAXŞƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova qayınatası

**KAMİL MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8487
Sifariş 2161
Qiyməti 40 qəpik